www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 12 iyun 2018-ci il Çərşənbə axşamı № 127 (7016) Qiyməti 60 qəpik

## Xəbər

**Bakıda uşaq bağçasında körpələrə işgəncə verilməsinin görüntüləri yayıldı**

yazısı səh.2-də

## Gündəm

**Azərbaycan prezidenti Ermənistanı təşvişə salan silahlara baxış keçirdi**



Bakının "Rus NATO-su"ndan silah alması İrəvanı ciddi şəkildə narahat edib; işğalçıya "POLONEZ" və "LORA" xəbərdarlığı

yazısı səh.3-də

**İtaliyada TAP-a qarşı Rusiya əngəli**

yazısı səh.12-də

**"Made in Azerbaijan" brendinin böyük uğuru üçün nə etməli...**

yazısı səh.13-də

**Azərbaycanda turizm zonalarına da qatarla getmək mümkün olacaq**

yazısı səh.10-da

**Prezident Saatlıdakı kütləvi zəhərlənməni xüsusi nəzarətə götürdü**

yazısı səh.10-da

**Ölkəmizdə halal hotellərə ehtiyac var - ekspertlər danışır**

yazısı səh.14-də

**Trampın addımları Avropa ilə ticarət müharibəsinə gətirə bilər**

yazısı səh.7-də

**Azərbaycanın hərbi məhsulları Fransada keçirilən sərgidə nümayiş etdirilir**

yazısı səh.2-də

**Xaçmazda itkin düşən qadının meyiti tapıldı - öldürüb, basdırıblar...**

yazısı səh.14-də

### Ramazan ayının 27-ci günü

İftar 20.28 İmsak 03.18-dək (QMİ)

27-ci günün duası: "İlahi, bu gün Qədr gecəsinin fəzilətini mənə nəsib et! Belə bir gündə mənim bütün çətinliklərimi asanlaşdır və mənim üzrlərimi qəbul et! Mənim günahlarımı təmizlə və çirkin əməllərin ağırlığından mənə nicat ver! Ey, saleh bəndələrə mehriban olan Allah!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

# ERMƏNİSTANDA İNQİLAB SONRASI EYFORİYA BİTİR: ƏKS-İNQİLAB QAPIDA

İşğalçı ölkədə Paşinyan hökumətindən məyusluq artır, küçə etirazları səngimir; Moskva fürsət gözləyir; **erməni nəşrindən SOS:** "Ukrayna inqilabından dərs götürməliyik, Qərb bizə lazımi dəstəyi verməyəcək..."




yazısı səh.8-də

# Yerlərdə əhalini incidən kiçik məmurlar - sərt cəzalar qaçılmazdır

**Zahid Oruc:** "Bəzən hansısa bir yerli məmur elə problemlər yaradır, nəticəsi dövlətin ayağında qalır"

yazısı səh.4-də



**Eldar Mahmudovun əmisi oğlu "kəfəni yırtmaq" istəyir...**

yazısı səh.5-də



*İbrahim Məmmədov:*

**"Avropa və ABŞ-ın savaşı dünyanı çöküşə aparır"**

yazısı səh.9-da



**Səlim Müslümov yaxşı işləyirdisə, vəzifəsindən niyə çıxarıldı...**

yazısı səh.5-də

YENİ MÜSAVAT
N 127 (7016) 12 iyun 2018



## Prezident dini qurumlara maliyyə yardımı ayırdı

**Prezident İlham ƏliyevAzərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında sərəncam imzalayıb.**

APA-nın məlumatına görə, Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 1,0 (bir) milyon manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 250,0 (iki yüz əlli) min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 250,0 (iki yüz əlli) min manat, Avropa yəhudilərinin Bakı dini icmasına 100,0 (yüz) min manat, Azərbaycan Respublikasında Katolik kilsəsinin Apostol Prefekturası dini qurumuna 100,0 (yüz) min manat və Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasına 100,0 (yüz) min manat ayrılıb.

## Azərbaycanın hərbi məhsulları Fransada keçirilən sərgidə nümayiş etdirilir



**Müdafiə Sənayesi Nazirliyindən APA-ya verilən məlumata görə, açılışda müdafiə sənayesi naziri Yavər Camalov da iştirak edib.**

Dünyanın inkişaf etmiş ölkələrindən qabaqcıl şirkətlərin qatıldığı sərgidə Müdafiə Sənayesi Nazirliyi 270 adda məmulat nümayiş etdirir. "EUROSATORY" sərgisində ilk dəfə təmsil olunan Müdafiə Sənayesi Nazirliyinin nümayiş etdirdiyi məmulatlar ziyarətçilər tərəfindən böyük maraqla qarşılanır.

Sərginin ilk günü nazir Yavər Camalovun Müdafiə Sənayesi Nazirliyinin stendini ziyarət edən Fransanın qabaqcıl şirkətlərindən olan "THALES" və "NEXTER"in nümayəndə heyətləri ilə görüşləri olub. Görüşlərdə ikitərəfli əməkdaşlığa dair danışıqlar aparılıb. Eyni zamanda, Yavər Camalov Almaniyanın "RHEINMETALL" şirkətinin nümayəndə heyəti ilə də görüşüb. Görüşün sonunda Müdafiə Sənayesi Nazirliyi ilə "RHEINMETALL" şirkəti arasında ikitərəfli əməkdaşlığa dair niyyət protokolu imzalanıb.

Görüşlərdə nazir Yavər Camalov Bakının Beynəlxalq Sərgilər Bürosu tərəfindən 2025-ci ildə keçiriləcək "Expo-2025" Ümumdünya Sərgisinə ev sahibliyi etməsi üçün irəli sürülmüş namizədliyinin dəstəklənməsi ilə bağlı geniş müzakirələr də aparıb.

## Azərbaycanda bayram namazının vaxtı açıqlandı

**Azərbaycanda bayram namazının vaxtı açıqlanıb. "Report" xəbər verir ki, Ramazan ayının başa çatması ilə əlaqədar iyunun 15-i saat 09.00-da ölkənin bütün məscidlərində bayram namazı qılınacaq.**

Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Allahşükür Paşazadə bayram namazını saat 09:00-da "Təzə Pir" məscidində qılacaq.

Qeyd edək ki, Azərbaycanda Ramazan ayı mayın 17-də başlayıb. İyunun 15-i və 16-sı Azərbaycanda Ramazan bayramıdır.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# İmamverdi İsmayılov "Şöhrət" ordeni ilə təltif edilib

**Prezident İlham Əliyev İmamverdi İsmayılovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.**



APA-nın məlumatına görə, İ.İsmayılov Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə təltif olunub.

**Musavat.com İmamverdi İsmayılovun tərcümeyi-halından bəzi məqamları təqdim edir:**

İmamverdi İsmayılov 1958-ci il iyunun 10-da Zəngilan rayonunun Vənətli kəndində anadan olub. Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini və Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunu bitirib.

1995-ci ildən (5 çağırış) Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır.

Parlamentin Azərbaycan-Avstraliya parlamentlərarası işçi qrupunun rəhbəridir.

İmamverdi İsmayılov uzun illər jurnalist fəaliyyəti göstərib. Əməkdar jurnalist, "Qızıl qələm" mükafatları alıb.

Evlidir, 3 övladı var.

Musavat.com İmamverdi İsmayılovu 60 illik yubileyi və "Şöhrət" ordeni ilə təltif edilməsi münasibətilə təbrik edir.



## 5 yaşlı Həsəni həyatda saxlayaq!

**2013-cü ildə dünyaya göz açan Həsən Əliyev doğulan gündən uşaq serebral iflicindən (tetraparetik forma) əziyyət çəkir. Bu üzdən daim xüsusi diqqət və qayğı ilə yanaşı, mütəmadi müalicəyə və intensiv fizioterapiyaya ehtiyacı var.**

Lakin imkansız valideynləri artıq bu xərcləri qarşılamaq iqtidarında deyillər. Odur ki, mərhəmətli və imkanlı insanlardan kömək umurlar. Bu köməyi onlardan - 5 yaşlı Həsəndən əsirgəməyək!

Ailəyə kömək etmək istəyənlərin nəzərinə çatdırırıq ki, "Bank Respublika"da uşağın anası Əliyeva Fidan Əbdüləli qızının adına hesab nömrəsi açılıb.

**Hesab nömrəsi**: 380194403252422201

**Pasport seriya:** AZE 14383692. **Əlaqə nömrəsi**: (055) 361 11 12



## Bakcell Böyük Britaniya səfirliyinin təşkil etdiyi tədbirlərə dəstək göstərdi

**Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi olan «Bakcell» şirkəti Böyük Britaniyanın Azərbaycandakı Səfirliyinin ənənəvi olaraq hər il keçirdiyi iki böyük tədbirə dəstək göstərdi.**

**Belə ki, Böyük Britaniyanın Azərbaycandakı səfirliyi ilə uzunmüddətli əməkdaşlığı çərçivəsində «Bakcell» şirkəti "Xəzər Neft və Qaz" sərgi və konfransının 25-ci ildönümü münasibətilə Böyük Britaniya Səfirliyi və ABŞ Səfirliyinin birgə təşkil etdiyi təntənəli qəbul mərasiminin sponsorlarından biri olub.**

**İyun ayının 7-də isə şirkət Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası Ülyahəzrət II Elizabetin doğum günü münasibətilə təşkil edilmiş təntənəli qəbulun keçirilməsinə dəstək göstərib. Ziyafətdə Azərbaycanın və Böyük Britaniyanın dövlət məmurları, yerli və beynəlxalq şirkət və təşkilatlarının nümayəndələri iştirak edib.**

**Qeyd edək ki, «Bakcell» şirkəti uzun illərdir ki, Böyük Britaniyanın Azərbaycandakı Səfirliyi ilə əməkdaşlıq edir və bu əməkdaşlıq sayəsində səfirliyin təşkil etdiyi bir sıra tədbirlərə sponsorluq etməklə yanaşı, "British Council" ilə birgə müxtəlif Korporativ Sosial Məsuliyyət layihələrini uğurla həyata keçirib.**

**Artıq 20 ildən çoxdur ki, Azərbaycanda fəaliyyət göstərən «Bakcell» şirkəti hazırda müxtəlif sahələri təmsil edən 1800-dən artıq korporativ müştəriyə xidmət edir. «Bakcell» neft sənayesi daxil olmaqla ölkə iqtisadiyyatının bir çox sektoru üzrə ən böyük korporativ telekommunikasiya xidmətlərinin təminatçısıdır. Şirkət Azərbaycanda fəaliyyət göstərən neft-qaz şirkətlərini ən yüksək keyfiyyətli telekommunikasiya həlləri ilə təmin edir.**

## Bakıda uşaq bağçasında körpələrə işgəncə verilməsinin videosu yayıldı



Firuzə Tağıyeva





**Bakıdakı "Kids Studio" bağçasında uşaqlara qarşı kobud rəftar, təhqir və işgəncə faktlarının açıq-aşkar əks olunduğu video-görüntü yayılıb.**

Görüntülər müxtəlif günlərdə təhlükəsizlik kameraları tərəfindən lentə alınıb və hər gün uşaqlara dözülməz zülm yaşadırlar.

Azxeber.com-un məlumatına görə, həmin bağçanın müvafiq icra hakimiyyəti orqanından lisenziyası da yoxdur.

Videoda görülən və uşaqlara zülm edən qadınlardan birinin adı bəlli olub. Bu, Firuzə Tağıyeva adlı tərbiyəçidir.

Bu bağçada bir uşaq üçün aylıq ödəniş haqqı 250 manat təşkil edir.

Məsələ böyük rezonansa səbəb olub. Yasamal rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov da bağça ərazisinə gəlib.

"Kids studio" uşaq bağçasının müdiri Nigar Müseyibova APA TV-nin əməkdaşı ilə söhbətində bildirib ki, tərbiyəçinin uşaqlara qarşı zorakılıq etməsini əks etdirən görüntülərdən xəbəri olmayıb. Onun sözlərinə görə, bağçada uşaqlara qarşı zorakılıq edən tərbiyəçi işdən uzaqlaşdırılıb.

Valideynlərin bağçada baş verənləri onlayn qaydada izlədiyini vurğulayan N.Müseyibova qeyd edib ki, müəssisə bundan sonra fəaliyyət göstərməyəcək.

O əlavə edib ki, görüntüləri bağçanın qəbul şöbəsində çalışmış xanım yayıb.

2015-ci ilin noyabrın 2-dən İqtisadiyyat Nazirliyi tərəfindən aidiyyatı dövlət qurumları ilə razılaşdırılmaqla "ASAN xidmət" mərkəzlərində lisenziyalar verilir.

İqtisadiyyat Nazirliyindən APA-ya bildirilib ki, bu müddət ərzində "Kids studio" uşaq bağçasına bu fəaliyyət üçün lisenziya qeydə alınmayıb.

**Qeyd edək ki, Təhsil Nazirliyi tərəfindən sonuncu dəfə 2015-ci ilin yanvar ayının 1-dən oktyabr ayının 20-dək 16 məktəbəqədər təhsil müəssisələrinə lisenziya verilib. Bu müddətədək Nazirliyin lisenziya verdiyi uşaq bağçalarının siyahısında "Kids studio"nun adı yoxdur.**

YENİ MÜSAVAT
N 127 (7016) 12 iyun 2018

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 11-də Müdafiə Nazirliyinin Raket Qoşunlarının "N" saylı hərbi hissəsinin açılışında iştirak edib.**



# Azərbaycan prezidenti Ermənistanı təşvişə salan silahlara baxış keçirdi

## Bakının "Rus NATO-su"ndan silah alması İrəvanı ciddi şəkildə narahat edib; işğalçıya "POLONEZ" və "LORA" xəbərdarlığı; hərbi ekspert: "Artıq bu silahlar Azərbaycan Silahlı Qüvvələrinin istifadəsindədir və istənilən an döyüş tapşırığını yerinə yetirmək üçün hazır vəziyyətdədirlər"







**Müdafiə naziri Zakir Həsənov** dövlət başçısına raport verib. Dövlət başçısı döyüş texnikası parkında hərbi texnikaya baxıb. Ali Baş Komandana əməliyyat-taktiki raket kompleksi olan "POLONEZ" barədə məlumat verilib. Onun maksimal atış uzaqlığı 300 kilometrə qədərdir. Raketin çəkisi 780 kiloqram, döyüş başlığı hissəsinin çəkisi 140 kiloqram, zərərvurma radiusu isə 80 metrdir. "POLONEZ"in maksimal uçuş müddəti saniyədə 310 metr, atışa hazırlıq vaxtı 10 dəqiqə, istismar müddəti isə 10 ildir. Bir döyüş maşınında 8 raket olur. Bu kompleks düşmənin əməliyyat düzülüşünün bütün dərinliyində onun nüvə və kimyəvi hücum vasitələrinə, kəşfiyyat-zərbə sistemlərinin yerüstü elementlərinə, qoşunların əsas qruplaşmalarına, bazalarda yerləşən aviasiyasına, hava hücumundan müdafiə vasitələrinə və obyektlərinə, idarəetmə məntəqələrinə, radioelektron vasitələrinə, arxa cəbhə və digər obyektlərinə zərbə vurulması üçündür. Bundan başqa, kompleks vasitəsilə dənizsahili istiqamətlərdə düşmən donanmasının yerləşmə məntəqələri dağıdılır və onun döyüş gəmiləri məhv edilir.

Əməliyyat-taktiki raket kompleksi olan "LORA" da "POLONEZ" kompleksi kimi döyüş zamanı eyni məqsədlər üçün istifadə edilir. Maksimal atış uzaqlığı 300 kilometrdən artıq olan bu kompleksin raketinin çəkisi 1580 kiloqram, döyüş başlığı hissəsinin çəkisi isə 240 kiloqramdır. Raketin zərərvurma radiusu 100 metr təşkil edir. Bir döyüş maşınında 4 raket olur. Onların maksimal uçuş müddəti saniyədə 300 metrdir, atışa hazırlıq vaxtı 13 dəqiqə, istismar müddəti 10 ildir. Həm "POLONEZ", həm də "LORA" kompleksləri GPS və İNS sistemləri ilə idarə olunur. Musavat.com xəbər verir ki, bu barədə prezidentin mətbuat xidməti məlumat yayıb.

Azərbaycanın özünün hərbi arsenalını gücləndirməsi Ermənistanda narahatlıq yaradıb. Düşmən ölkənin mediası Azərbaycan prezidentinin Rusiya səfəri öncəsi hərbi hissəyə baş. çəkməsinin, alınan hərbi texnika və silahlara baxış keçirməsini məqsədli hesab edib. İddia olunub ki, Azərbaycan bu yolla Rusiya görüşləri ərəfəsində psixoloji və siyasi təzyiq etməyə çalışır. Ermənilər Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olan Rusiya və Belorusun Azərbaycana silah satmasından da ciddi şəkildə narahat olduqlarını biruzə verməkdədirlər. Bu mənada Belorusdan alınan "POLONEZ" və Rusiya ilə aparılan "Terminator"dan xüsusi bəhs olunub. "Şübhə etmirəm ki, Azərbaycan lazımı məbləği təklif etsə, alış baş tutacaq" erməni müəllif yazır. "Ən ağrılısı budur ki, bizim düşməniımizi ən yaxın müttəfiqimiz silahlandırır"-Arkadiy Qriqoryan əlavə edib.

**Hərbi ekspert, ehtiyatda olan polkovnik-leytenant Üzeyir Cəfərov** "Yeni Müsavat"a açıqlamasında Azərbaycanın siyasi-hərbi rəhbərliyinin müxtəlif tədbirlərdə və görüşlərdə dəfələrlə açıq şəkildə bəyan etdiyi fikirlərini xatırlatdı: "Bildirilib ki, nə qədər ki, ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam təmin edilməyib, biz ən müasir silah-sursatın alınmasını davam etdirəcəyik. Ali Baş Komandan kimi İlham Əliyevin əməliyyat-taktiki raket (ƏTR) kompleksi olan "POLONEZ" və digər müasir silahlarla təchiz olunmuş hərbi hissəyə baş çəkməsi də bir daha onu sübut etdi ki, bu proses davamlıdır. Yaxın günlərdə həm işğalçı Ermənistan, həm də havadarları hərbi paradda digər daha yeni və müasir avadanlıqlarla qismən də olsa, tanış olmaq imkanı əldə edəcəklər".

**Ü.Cəfərov hesab edir ki, hərbi arsenalımıza yeni silahların daxil edilməsi həm də işğalçıya xəbərdarlıqdır:** "Artıq bu silahlar Azərbaycan Silahlı Qüvvələrinin istifadəsindədir və istənilən an döyüş tapşırığını yerinə yetirmək üçün hazır vəziyyətdədirlər. Atış uzaqlığı 300 kilometr olan bu ƏTR kompleksi yəqin ki, onsuz da böyük təşviş içində olan Ermənistanın və havadarlarının yuxusuna haram qatmış olacaq. Biz bu tip silahları sadəcə təlimlər və məşqlər üçün əldə etməmişik. Onlardan mütləq istifadə olunacaq. Sözsüz ki, buna zərurət yaranacağı təqdirdə. Bildiyim qədər mütəxəssislərimiz artıq bu kompleksi ən yüksək səviyyədə mənimsəyib, bəzi test sınaqlarını da həyata keçiriblər. Özü də, bu kompleksdən bir neçəsi alınıb və inanıram ki, bu müasir silah da ordumuzun döyüş qabiliyyətinə daha da çox təsir göstərəcək. Yəqin ki, dünənə kimi öz mifik "İsgəndər-M"-ləri ilə bizə az qala gecə-gündüz hədyanlar səsləndirən ermənilərin "qazı" bir qədər azalacaq. Əslində isə, rəsmi İrəvanın istifadəsində adını çəkdiyim raket kompleksindən yoxdur. Onun daha zəif, daha köhnə "E" modeli var, onları da rus mütəxəssislər idarə edirlər".

**Hərbi ekspert İrəvanın bu prosesi təşvişlə müşahidə etdiyinə şübhə etmir:** "Ermənistanın hazırkı siyasi-hərbi rəhbərliyi bundan sonra Rusiya və Belorusun müxtəlif hərbi-sənaye idarələrin qapısına düşəcək ki, heç olmasa, o silahdan bir neçəsini təcili əldə edə bilsinlər. Ötən günlərdə, Belorus prezidenti Aleksandr Lukaşenko ilə Ermənistanın yeni siyasi-hərbi rəhbərliyinin görüşündə, bu məsələ də müzakirə edilmişdi. Amma hələ ki konkret bir nəticə yoxdur, ola bilsin ilin sonuna hansısa razılaşma əldə edilsin. Bu isə xeyli vaxt deməkdir. Hazırda isə, bütün parametrlər üzrə Silahlı Qüvvələrimiz düşmən ölkənin ordu birləşmələrini həm say baxımından, həm də keyfiyyət, müasirlik baxımından geridə qoyur".

**Ü.Cəfərov qeyd etdi ki, torpaqlarımızın işğaldan azad edilməsi ilə bağlı savaş ehtimalı günbəgün daha da artır:** "Ona görə də biz silahlanma istiqamətində növbəti addımlar atmağa məcburuq. Bu il daha bir neçə müasir silah və sursatın ordunun arsenalına daxil edilməsi planlaşdırılır. Bu, artıq Belorusun deyil, daha uzaq və inkişaf etmiş ölkələrin modern və müasir hərbi avadanlığı olacaq".

❑ **Cavid TURAN, "Yeni Müsavat"**

# Elxan Süleymanov inşa etdirdiyi məktəbdə şagirdlərlə görüşdü

**Şamaxının millət vəkili Elxan Süleymanov babası Hacı Rəhim Əfəndinin adını daşıyan Göyçay rayon Qaraman kənd tam orta məktəbində şagirdlərlə görüş keçirib.**

Musavat.com xəbər verir ki, bu məktəbin əsasını Elxan Süleymanovun babası, elm-maarif fədaisi, xeyriyyəçi Hacı Rəhim Əfəndi 1903-cü ildə qoyub. Uzun illərdən sonra Elxan Süleymanov babasının ənənəsinin davamçısı olaraq, onun 20-ci əsrin əvvəllərində inşa etdirdiyi məktəbin binasını yenidən - müasir formada tikərək, 2017-ci il 15 sentyabrda - Bilik Günündə göyçaylılara hədiyyə etmişdi.

Tədris ilinin sonunda da Elxan Süleymanov bu məktəbin şagirdlərini unutmayıb, onlarla görüş keçirərək, 2017-2018-ci tədris ilində məktəbdə qazanılan nailiyyətlərlə maraqlanıb, əlaçı şagirdləri, habelə qəbul imtahanlarında yüksək nəticə göstərən abituriyentləri mükafatlandırıb.







Nəzərə çatdıraq ki, xeyriyyəçi Elxan Süleymanov ölkə ərazisində indiyədək onlarla məktəb binasını əsaslı təmir etdirib, bir neçə yeni məktəb binası tikdirərək şagirdlərin istifadəsinə verib. Bu sırada o, 2010-2017-ci illər ərzində millət vəkili olduğu Şamaxı rayonunda 10-dan çox məktəb binasını təmir etdirib, Ərçiman, Mələk kəndlərində müasir tipli yeni məktəblər inşa etdirərək, istifadəyə verib.

**Bundan başqa Elxan Süleymanov ümumilikdə 150-dən çox şagirdə illərdir əlaçı təqaüdü verir.**

❑ **Musavat.com**

YENİ MÜSAVAT
N 127 (7016) 12 iyun 2018

**11 aprel prezident seçkilərindən iki ay keçdi. Bu müddətdə hökumətin tərkibində xeyli yenilənmələr həyata keçirildiyi məlumdur. Əksəriyyəti gənclərdən ibarət kadrlar nazir və komitə sədri vəzifələrinə təyin edilib. Dəyişikliklər rayonların icra başçılarını da əhatə etməkdədir. Artıq bir neçə rayonun icra başçısı vəzifədən götürülüb. O rayonlar ki, icra başçılarının fəaliyyətindən şikayətlər durmadan artırdı. Yerlərdə əhalini narazı salan kiçik məmurların dəyişdirilməsi prosesinin davam edəcəyi deyilir. Bu isə o deməkdir ki, narazılıqlar da tədricən aradan qalxacaq.**

# Yerlərdə əhalini incidən kiçik məmurlar - sərt cəzalar qaçılmazdır

## **Zahid Oruc:** "Bəzən hansısa bir yerli məmur elə problemlər yaradır ki, nəticəsi dövlətin ayağında qalır"



Bir məqamı da qeyd edək ki, sadə vətəndaşlarla birbaşa təmasda olan kiçik məmurlardır, bu səbəbdən narazılıq daha çox onlardandır. Bir çox hallarda bu məmurlar özlərini "firon" kimi aparırlar. Qarşıdakı proseslərdə onların cəzalandırılacağı şübhəsizdir...

Bu məsələ ətrafında danışdığımız **deputat Zahid Oruc** qeyd etdi ki, ölkə rəhbəri hamıdan daha artıq dərəcədə böyük inkişafa malik bir ölkə görmək arzusundadır: "Prezident bunu nəinki istəyir, eləcə də buna nail olmaq üçün ötən illərdə böyük miqyaslı proqramlar, layihələr həyata keçirib və keçirir. Biz ötən dövr ərzində hər hansı bir nazirin və ya yerli bir məmurun kontekstində Azərbaycanın keçdiyi yola dəyər verə bilmərik. Onlar hətta istəməsəydilər də Azərbaycan öz-özlüyündə əldə etdiyi uğurları qazanacaqdı. Biz yalnız onu deyə bilərik ki, nailiyyətlər daha böyük olardı, bu problemlər özünü göstərməzdi, itkilərin şahidi olmazdıq. Ölkə rəhbəri əgər konkret şəxslərə etibar edibsə, o adamlar həmin sahəyə cavabdehlik daşınmalıdı. Kim ona etibar edilmiş sahənin cavabdehliyini daşıya bilmirsə, barəsində müvafiq addım atılıb. Mühüm nazirliklərin və nazirliklərin rəhbərlərinin fəaliyyətindəki mənfi tendensiyalar yalnız konkret olaraq şəxslərə ziyan vurmadı, Azərbaycan dövlətinin əldə edəcəyi nailiyyətlərə miqyasca bir qədər təsir elədi. Amma reallıq ondan ibarətdir ki, bu gün ölkə başçısı yeni bir dönəmin şərtlərini hamı üçün elan edir. Ola bilər ki, bir çox adamlar öz vəzifələrində təbii ki, qalaraq fəaliyyətlərini davam edəcəklər, amma onların da fəaliyyətində yeni tendensiyalar, yeni yanaşmalar özünü göstərəcək. Yəni biz əgər bölgələrdən danışırıqsa xüsusilə aqrar sahə üzrə ixtisaslaşa biləcək regionlar həm hökumətin yeni üzvlərindən yaxşı siqnallar ala bilərlər, həm də bu həyata keçiriləcək tədbirlər əhalinin Bakıya axınının qarşısını alacaq. Hər rayonun rəhbəri bilməlidir ki, cənab prezidentin müşavirədə söylədiyi fikir əsl proqram müddəasıdır - "Siz investisiya cəlb edin, iş yerləri açın, regionun inkişafı üçün addımlar atın. Məhz bunun müqabilində sizin fəaliyyətinizə qiymət veriləcək". Hətta dünən fəaliyyətində problemlər olanlar bu günün tələblərini başa düşməlidirlər. Bilməlidirlər ki, ölkə rəhbəri 7 illik bir dövr üçün bütün sahələrdə islahatları uğurla başa çatdırmaq iradəsindədir".

**Z.Oruc bildirdi ki, azərbaycanlılar region dövlətlərinin böyük əksəriyyətindən yaxşı yaşamağa qadirdir və buna nail olunmalıdır:** "İş yerləri məsələsində, turizm məsələsində, hüquqların gerçəkləşdirilməsi məsələsində biz cəlbediciliyi artırmalıyıq. Bizim ərazimin 70 faizi qədər olan və əhalimizin yarısı qədər əhalisi olan Gürcüstan dünya çapında özünün informasiya reklamını aparıb və onun nəticəsində uğurlar əldə olunub, investisiyaların cəlbi genişlənib, hətta azərbaycanlı iş adamları da gedib orada rahat fəaliyyət aparırlar. Nə üçün bizdə də belə olmasın. Ona görə də hökumətin 70 faizə qədərinin dəyişməsi kontekstində, yerlərdə aparılan yenilənmələr onun sübutudur ki, prezident apardığı dəyişikliklərin hesabına cəmiyyətdə yeni bir mərhələnin başlandığını elan edir. Prezident bununla göstərir ki, Azərbaycan güvənli bir yer olmalıdır. Azərbaycan cəmiyyətinin dərinliyinə getdikcə görürük ki, bəzən hansısa bir yerli məmur elə problemlər yaradır ki, onun nəticəsi dövlətin ayağında qalır və adamlar öz qənaətlərini ictimai yerlərdə məhz dövlətin, hökumətin adına çıxırlar. Bölgələrin iqtisadi müstəqilliyi artdıqca, biz görəcəyik ki, bu cür məsələlər ortadan qalxacaq".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Bakıda binaların həyətini zəbt edənlər kimlərdir...

## MTK sahibləri bu işləri guya Nazirlər Kabinetinin qərarı əsasında gördüklərini iddia edir, amma...

**Bakıda bir müddətdir ki, müxtəlif Mənzil Tikinti Kooperativləri köhnə məhəllələrin boş qalan ərazilərində çoxmərtəbəli binalar tikirlər. Bu isə sakinlərin narazılığına səbəb olur. Vətəndaşlar bildirirlər ki, bir neçə beşmərtəbəli binanın həyəti olan bu ərazilərdə onların uşaqları oynayırlar, özləri dincəlirlər. Hər hansı bir MTK-nın gəlib bu boş yerdə çoxmərtəbəli bina ucaltması isə onların rahatlığını pozur.**



Narazılıqlara rəğmən son vaxtlar paytaxtda beşmərtəbəli binaların arasında göydələnlər ucaldılması ənənə halını alıb. Hətta bəzi MTK-lar hətta binaların həyətindəki obyektləri, xeyir-şər evlərini söküb, orada-dar bir ərazidə bina tikirlər.

Əksər MTK-lar bildirirlər ki, onlar Nazirlər Kabinetinin qərarı əsasında bu tikintini aparırlar. Əslində isə məsələ heç də belə deyil: Nazirlər Kabinetinin qərarı əsasında aparılan tikinti işləri, sökülən 2 və 5 mərtəbəli binaların yerində aparılır. Yəni burada hansısa binanın həyətinin zəbt edilməsi hallarına rast gəlinmir. Sadəcə olaraq MTK sökdüyü binanın sakinlərini müvəqqəti olaraq kirayə mənzillərə çıxarıb, onların kirayə haqqını ödəyir. Bina hazır olduqdan sonra isə həmin tikilidən sakinlərə mənzil verir. Bu mənzillərin sahəsi isə adətən sakinlərin əvvəlki mənzillərinin kvadratından 10 faiz çox olur. Hazırda metronun "Qara Qarayev" stansiyasi yaxınlığında aparılan söküntü-tikinti işləri Nazirlər Kabinetinin pilot layihəsi əsasında həyata keçirilir.

Azərbaycanda inşaatla bağlı konkret normalar var. Belə ki, inşaat normalarına görə, binalar arasındakı məsafə ən pis halda onların hündürlüklərinin yarısı qədər olmalıdır.

"Yeni Müsavat"a danışan **ekspert Natiq Cəfərli** bildirdi ki, binaların arasındakı ara məsafəsi həm də təbii və qeyri-təbii fəlakətlər zamanı önəm daşıyır:

"Azərbaycanda tikinti aparan zaman bunu 14 idarə ilə razılaşdırmalısan. Həm təbii fəlakətlər zamanı binaların uçma trayektoriyası nəzərə alınmalıdır ki, bir-birinin üzərinə uçmasınlar, həm də yanğın baş verərsə, binaya tez bir zamanda yaxınlaşıb, bunun qarşısını almaq üçün imkan olmalıdır. Bütün bunlar da standartlarla tənzimlənir. Ancaq ümumilikdə isə binalar bir-birindən minimum 50 metr məsafədə tikilməlidir. Bakıda indi elə bir vəziyyət yaranıb ki, heç bir standartlar, tikinti təşkilatları tərəfindən təsdiqlənən standartlar yerinə yetirilmir. Bunun nəticəsində isə həm təhlükəsizlik qaydaları pozulur, həm də sakinlərin hüquqları qorunmur. Xüsusilə də ən böyük problem də təhlükəsizlik məsələsidir ki, buna da əməl edilmir. Xatırladıram ki, Bakı şəhəri aktiv seysmik zona olmasa da 2000-ci ildə ciddi zəlzələ baş vermişdi. Mütəxəssislərin hesablamalarına görə, Bakı şəhərində belə bir hadisələrin təkrarlanması ehtimalı da çox yüksəkdir. Bu baxımdan söyləyə bilərik ki, məsələ yalnız sakinlərin narahatlığından ibarət deyil. Doğrudur, bu da vacib amildir. Çünki məhəllələrdə tikilən binalar həm insanların gediş gəlişinə maneə yaradır, həm də toz-torpaq, səs-küy onların normal yaşamlarını pozur. Həm də qeyd etdiyim kimi təhlükəsizlik qaydalarına əməl olunmaması gələcəkdə ciddi problemlərə yol aça bilər. Məsələ burasındadır ki, tikintiyə nəzarət etməli olan qurumların heç biri bu məsələ ilə maraqlanmırlar. Nəticə olaraq Bakıda təqribən 1990-cı illərin sonlarından bu günə qədər xaotik tikinti bumu yaşanır. Hələ də vəziyyət davam etməkdədir".

**Ekspert bildirib ki, Nazirlər Kabinetnin layihəsi tamamilə başqadır:**

"Onlar "xruşşovka" adlanan köhnə binaların söküntüsü və yerində çoxmərtəbəli binaların tikintisi ilə məşğuldurlar. Bakı şəhərində artıq 80 ilə yaxın yaşı olan, köhnəlmiş binalar var. Ona görə də həmin binaların yerində çoxmərtəbəli tikililər ucaldırlar. Belə bir layihələrin olması normaldır. Hazırda metronun "İnşaatçılar" stansiyasının yaxınlığında da həmin layihə əsasında tikintilər aparılır. Bəzi hallarda isə mənzil tikinti idarələri və yaxud da şirkətlər, bu proyektdən istifadə edərək, öz tikintilərini aparmağa çalışırlar. Ancaq burada məsələ onların istəkləri deyil. Məsələ odur ki, nəzarət etməli olan xeyli sayda qurum olsa da, onlar, öz işlərinin öhdəsindən gəlmirlər. Nəticədə də bu kimi mənzərələr ortaya çıxır ki, sakinlər aksiya keçirməli olurlar".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 127 (7016) 12 iyun 2018

# Eldar Mahmudovun əmisi oğlu "kəfəni yırtmaq" istəyir...

## Gələn ay həbs müddəti bitən Vüqar Mahmudovun yüngül cəzalandırılacağı xəbəri var; "Eldar Mahmudovu tutmayacaqlar" iddiası...

**2018-ci il İyulun əvvəlində sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun həbsdə olan əmisi oğlu Vüqar Mahmudovun barəsindəki həbs qəti-imkan tədbirinin müddəti bitir. Vüqar Mahmudov 7 aydan artıqdır ki, həbsdədir. Onu ötən il noyabrın 3-də həbs ediblər.**

Redaksiyamıza daxil olan məlumata görə, ötən müddət ərzində Vüqar Mahmudov bir neçə dəfə sorğu-sual olunub. Qısa dindirmələr əsasən Vüqar Mahmudova verilən mənimsəmə ittihamı üzrə olub. Vüqar Mahmudovun həbsinin ilk günlərində yayılan məlumatlarda bildirilirdi ki, ondan sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudova qarşı ifadə almağa çalışıblar. Vüqar Mahmudov Eldar Mahmudovun "sağ əli" hesab edilirdi. V.Mahmudov Eldar Mahmudovun köməkçisi statusunda olsa da, bir çox hallarda nazir müavinlərindən artıq səlahiyyətli olub. İddialara görə, onun kabinetində bir neçə iri seyf olub. Həmin seyflərə iş adamlarından, müxtəlif vəzifə sahiblərindən, məmurlardan toplanan xəraclar yığılıb. Sonradan həmin pullar kisələrə doldurularaq "Azəriqazbank"a daşınıb. Məlumdur ki, "Azəriqazbank" rəhbəri Çingiz Əsədullayevlə Eldar Mahmudovun çox yaxın münasibətləri var, sabiq nazir "vurulan"dan sonra Ç.Əsədullayev mətbuata açıqlamasında bu əlaqələri gizlətməyib. Eldar Mahmudov MTN-ə rəhbərlik etdiyi dövrdə ayrı-ayrı iş adamlarından alınan pullar "Azəriqazbank"a daşınaraq oradakı hesablara yatırılıb. Bu əməliyyatlara V.Mahmudov rəhbərlik edib. MTN-də yığılan rüşvət pullarının kisələrə doldurularaq banka rahat daşınmasına hazırlıq görülürmüş. Ç.Əsədullayevin Şahin adlı sürücüsü onun xidməti maşını - qara rəngli, Az 10 JO 900 nömrə nişanlı "Mutsibishi Pajero" ilə həftədə bir neçə dəfə MTN-ə gedərək oradan maşına yüklənən pul dolu kisələrlə banka qayıdıb. Pulun sürücüyə təhvil verilməsinə də Vüqar Mahmudov nəzarət edib. Sonradan "qara pul"lar xaricdəki bank hesablarına ötürülüb. Vüqar Mahmudovun bu epizodlar üzrə dindirildiyi haqda məlumatlar vardı. Əsasən ləğv edilmiş MTN tərəfindən cəzalandırılan şəxslərdən yığılan pullar Vüqar Mahmudov tərəfindən toplanaraq bu haqda nazirə məruzə olunurmuş. Vüqar Mahmudovun həbsindən sonra yayılan xəbərlərdə onun ifadəsi əsasında Eldar Mahmudovu həbs etmək istəyinin olduğu da vurğulanırdı. Son məlumatlara görə artıq Vüqar Mahmudova qarşı belə bir tələb irəli sürülmür. Belə iddialar var ki, Eldar Mahmudova qarşı əvvəlki sərt münasibət yoxdur, sabiq nazirə qarşı daha loyal mövqeyə keçid olunub. Hətta belə iddialar da var ki, Eldar Mahmudova əhəmiyyətsiz bir vəzifə verməklə, yaxınlarını şərti cəzalarla azad etməklə ölkə daxilində nəzarət altında tutmaq, xaricə qaçmasına imkan verməmək planları var. Yəni Eldar Mahmudova və yaxınlarına ölkədən çıxmaq yasağı qoyub, hərəkət sərbəstliyi verilir. Əgər xüsusi bir "çp" olmasa, sabiq nazir və ətrafı reablitasiya da oluna bilər.


Eldar Mahmudov

**Vüqar Mahmudovun barəsində seçilmiş həbs qəti-imkan tədbirinin uzadılması ilə bağlı istintaq orqanının verdiyi təqdimata bu ilin fevralında baxılıb və məhkəmə təqdimatı təmin edib.** V.Mahmudovun həbs müddəti daha 4 ay uzadılıb. Qərardan narazı qalan V.Mahmudov apelyasiya şikayəti verib. Bakı Apelyasiya Məhkəməsinin qərarı ilə onun apellyasiya şikayəti təmin edilməyib.

V.Mahmudova Cinayət Məcəlləsinin 179.3.1-ci (mütəşəkkil dəstə tərəfindən mənimsəmə və ya israf etmə), 179.3.2-ci (külli miqdarda mənimsəmə və israf etmə), 182.3.1-ci (külli miqdarda əmlak əldə etmək məqsədi ilə hədə-qorxu yolu ilə tələb etmə), 182.3.2-ci (külli miqdarda əmlak əldə etmək məqsədi ilə hədə-qorxu yolu ilə tələb etmə), 302.1-ci (əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyətinə malik olmayan şəxslər tərəfindən belə tədbirlərin keçirilməsi, habelə əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyətinə malik olan şəxslər tərəfindən həmin tədbirlərin qanunvericiliklə müəyyən edilmiş əsaslar olmadan keçirilməsi şəxsin hüquq və qanunla qorunan mənafelərinin əhəmiyyətli pozulmasına səbəb olduqda), 302.2-ci (eyni əməllər gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrdən istifadə edilməklə törədildikdə) və 341.2.1-ci (bir qrup şəxs tərəfindən, ağır nəticələrə səbəb olmaqla hakimiyyətdən sui-istifadə etmə) maddələri ilə ittiham irəli sürülüb.

Vüqar Mahmudov özünü ittihamlar üzrə təqsirli bilmir, ittihamları qəbul etmir. Onun yüngül cəza ilə məhkəmədən azad olunacağı da istisna deyil. Yada salaq ki, Vüqar Mahmudov həbs olunan günlərdə Eldar Mahmudovu da Baş Prokurorluğunun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsinə çağırıb dindirirdilər. Həmin günlərdə belə ehtimallar vardı ki, sabiq naziri həbs edəcəklər. 4 dəfə dindirilən Eldar Mahmudovu sonradan istintaqa çağırmadılar.

**Xatırladaq ki, sabiq nazir Milli Təhlükəsizlik Nazirliyinin (MTN) vəzifəli şəxslərinə qarşı irəli sürülən ittihamlarla əlaqədar Baş Prokurorluğunun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsinə çağırılaraq ifadə verib. Sözügedən cinayət işinə əsasən nazirliyin vəzifəli şəxslərinə qarşı Cinayət Məcəlləsinin 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə), 309.1 (vəzifə səlahiyyələrini aşma) i 302.2 (əməliyyat-axtarış fəaliyyəti haqda qanunvericiliyi pozma) maddələri ilə cinayət işi başlanıb. Hazırda istintaq əməliyyat tədbirləri davam edir. Eldar Mahmudov milli təhlükəsizlik naziri 17 oktyabr 2015-ci ildə vəzifəsindən azad edilib.**

**❑ E.HÜSEYNOV, "Yeni Müsavat"**

# Səlim Müslümov yaxşı işləyirdisə, vəzifəsindən niyə çıxarıldı...

## Sabiq nazir korrupsiya ittihamlarına cavab vermir; DSMF-dəki yanğın haqda daha danışmaq istəmir

**Səlim Müslümov əmək və əhalinin sosial müdafiəsi naziri postundan uzaqlaşdırılandan sonra onun barəsində müxtəlif səpkili xəbərlər yayılmaqdadır. İşdən çıxarılan sabiq nazirin ölkədən getdiyi, infarkt keçirdiyi, nəzarət altına alınması haqda xəbərlər var.**

Səlim Müslümov vəzifədən çıxarılandan sonra adı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) yanında Dövlət Sosial Müdafiə Fondu (DSMF) Aparatının binasında baş vermiş yanğın olayına qarışıb. Bundan sonra sabiq nazir keçmiş iş yerindəki yanğınla əlaqəsinin olmadığını sübut etmək üçün açıqlamalar verib, nazir olarkən çox yaxşı işləməsindən bəhs edib. *Amma bir məsələni də diqqətdən qaçırıb. Əgər Səlim Müslümov bu qədər yaxşı işləyirdisə, prezident onu vəzifəsindən niyə uzaqlaşdırdı? Korrupsiyaya bulaşmayıbsa, ondan bu qədər şikayətçi ordusu necə əmələ gəlib?*

Səlim Müslümovun adını keçmiş iş yerindəki yanğından dolayı gündəmə gətirən də məhz korrupsiya iddialarıdır. Həmin yanğın hadisəsi isə günün günorta çağı, Dövlət Sosial Müdafiə Fondu Aparatının yerləşdiyi inzibati binanın 7-ci mərtəbəsində baş verib. Yanan isə sənədlərdir. Həmin sənədlərdə hansı məlumatların yer aldığı isə bu günə qədər açıqlanmayıb.



Səlim Müslümovla əlaqə saxlayıb iddialara münasibətini öyrənməyə çalışdıq. Sabiq nazir suallarımızı cavabsız buraxdı.

*Əslində Səlim Müslümovun susqunluğu korrupsiya ittihamlarının ən yaxşı cavabıdır. Sabiq nazir nə deyə bilər?*

Ortada onun adı keçən onlarla korrupsiya cinayəti haqda iddialar var.

Onlardan sonuncusu da Dövlət Sosial Müdafiə Fondu (DSMF) Aparatının binasında baş vermiş yanğınla əlaqəlidir. Belə ehtimallar var ki, Səlim Müslümovun dövründə baş verən korrupsiya cinayətlərinin izlərinin ört-basdır etmək üçün sənədlər yandırıla bilərdi. Səlim Müslümovun adı DSMF-də baş verən yanğına qədər böyük maxinasiyalarda hallanırdı. Onun DSMF və ardından ƏƏSMN-nə rəhbərlik etdiyi 16 il ərzində 2 milyard 500 milyon manatı təyinatı üzrə xərcləmədiyi, həmin pulların mənimsənildiyi iddiaları da var.

**Yanğının qəsdən törədildiyi və ya digər səbəbdən baş verdiyi haqda hələlik hər hansı bir açıqlama verilməyib. Bilinən odur ki, ofis otağı və oradakı sənədlər yanıb. DSMF Aparatındakı yanğında şübhəli məqamların olması ictimaiyyətin də diqqətindən qaçmayıb. Ona görə də DSMF-dəki yanğının korrupsiyadan qaynaqlandığı haqda iddialar inandırıcı təsiri bağışlayır. Səlim Müslümov ölkə rəhbərliyinin adını hallandırmaqla yaxasını kənara çəkməyə çalışıb. Hazırda Hesablama Palatası müfəttişləri isə bu arada Dövlət Sosial Müdafiə Fondunda yoxlamalarını davam etdirirlər. Mümkündür ki, ortaya ƏƏSMN-ə Səlim Müslümovun rəhbərlik etdiyi dövrü əhatə edən böyük korrupsiya cinayətləri çıxacaq.**

**❑ E.HÜSEYNOV, Musavat.com**

YENİ MÜSAVAT
N 127 (7016) 12 iyun 2018



# Paşinyanın sayıqlamalarının arxasında nə dayanır?..

**Hüseynbala SƏLİMOV**

**“Yağışdan çıxdıq, yağmura düşdük” deməyə qətiyyən tələsməzdik. Amma Nikol müəllim narahatlıq üçün olmasa da, hər halda əsəb üçün xeyli zəmin yaradıb. Bu adam kor tutduğundan əl çəkmədiyi kimi, tutub durub ki, bəs bizim Qarabağda beş-üç ermənimiz var və siz onları tərəf kimi tanımalısınız...**

Amma bütün bunları bir ermənінin xəstə xəyalının məhsulu kimi də dəyərləndirmək lazım deyil, Paşinyanın bu məsələni bu qədər israrla təkid etməsi güman ki, səbəbsiz deyil.

Hazırda Ermənistanın Rusiya ilə elə bir problemi yoxdur. Lavrov yerində oturub, üstəlik, Nikol müəllim düşünür ki, Soçidəki görüşdə V.Putinlə yetərincə anlaşma yaradıb, baxmayaraq ki, ruslar belə düşünmür, Ermənistanla və Paşinyanla bağlı giley-güzarlarını, qarğışlarını bizim oxucu auditoriyası ilə bölüşməyə can atırlar ki, bəlkə biz özümüzdə təpər tapıb onların əvəzində İrəvanı yüngülcə cəzalandırdıq; amma çox yüngülcə, çünki Kreml erməniləri hələ ciddi cəzalandırmağa qərar verməyib.

Deməli, Paşinyanın əsas problemi ölkəsinin siyasətindəki Qərb vektorunu bir az da gücləndirmək, bizim dildə desək, Qərb ölkələrinə də nömrə gəlməkdir ki, onların da siyasi, ən əsası da maliyyə dəstəyini alsın. Guya ki, bir neçə yüz milyon dollarla hələ X.Abovyanın haqqında bəhs etdiyi “erməni yaralar”ını sağalda biləcəklər...

Amma Qərbi də uşaq-muşaq idarə etmir, onların da gözləntiləri var. Düşünürlər ki, Paşinyan siyasi sələflərindən fərqli olaraq bütün hallarda Qarabağ müstəvisində daha konstruktiv olacaq və ya olmalıdır.

ABŞ-ın və ya Fransanın siyasi dairələri erməni əsilli seçicilərinə vəd verməkdən yorulub və bu adamlar cəmi ermənilərə əlillik təqaüdü kəsə bilməz. İrəvanın qurtuluşu region dövlətlərilə konfliktlərdən qurtulmaqdır, hasını ki, Nikol cənabları qətiyyən etmək istəmir - buna ya ürək eləmir və qorxur, ya da erməniliyi mane olur.

Ona görə də ən yaxşısı, Qərbin Azərbaycanla israrlı danışıq tələblərindən yaxa qurtarmağın yolu yükü öz üzərindən atmaqdır - guya ki, bizlik burada iş yoxdur, qoy, Azərbaycan və Dağlıq Qarabağ öz aralarında danışsın və bizə qarşı Türkiyənin və Azərbaycanın indiyədək yürütdüyü təcridetmə siyasəti də bir nonsensdir...

Etiraf edək ki, ilk baxışda heç də pis düşünülməyibdir və hal-hazırda danışıqlardan qaçmağın, vaxt uzatmağın ən yaxşı yolu, həm də bir daha deyirik ki, Qərbin də, hətta Kremlin də “Azərbaycanla bir araya gəlin!” tələblərindən can qurtarmağın ən yaxşı üsulu budur, çünki bu axmaqlara hələ də belə gəlir ki, vaxtı uzatmaq onlara sərf edir, halbuki vaxt uzandıqca Ermənistan səfalətin lap dibinə sürüklənir. Amma bunlar belə zənn edirlər ki, Moskvanın silahının gücünə Dağlıq Qarabağdakı mövqelərini qoruya biləcək, Qərbin pulları sayəsində isə iqtisadiyyatlarını dirçəldəcəklər.

Amma bu kontekstdə başqa yozumlar da var. Belə ehtimallar da var ki, qondarma “DQR”-i tərəf kimi tanıtmağa çalışmaqla N.Paşinyan həm də artıq unutduğumuz 907-ci düzəlişin qüvvəsini aktivləşdirmək, eləcə də ABŞ - la Azərbaycan arasındakı münasibətləri bir az soyutmaq istəyir.

Bütün hallarda aydındır ki, Ermənistanın xarici işlər naziri Z.Mnaçakanyan tərəflərin liderləri arasındakı görüşün ayların deyil, həftələrin predmeti olduğunu desə də, duyulanı budur ki, N.Paşinyan ən azı hələ buna razı deyil,- o, danışıqlarda nə deyəcəyini hələki təxmin etməyib, ona görə də elə bir situasiya yaratmağa çalışır ki, həm Bakı, həm də həmsədrlər üçün yeni və gözlənilməz olsun.

Bir məsələ də var ki, N.Paşinyanın “kabinet”inin hələki etibarlı mandatı yoxdur, bu, etirazçı elektoratın ovqatından asılmış bir hökumət kabinetidir ki, ona legitimliyi və əsl səlahiyyəti ancaq növbəti parlament seçkisi verə bilər. Nikol cənabları isə buna hazır deyil, çünki hələ çox şey əvvəlki hakim partiyanın nəzarətindədir- istər mərkəzi, istərsə də yerli hakimiyyətin strukturları olsun...

N.Paşinyan yaxınlarda dedi ki, 91-ci ilin seçkilərini çıxmaq şərtilə ölkədə qalan seçkilərin hamısı saxtalaşdırılıbdır. Deməli, qalır sınanmış klassik üsul: seçkiləri o qüvvə odur ki, buna qədər artıq digər üsullarla hakimiyyəti ələ almış olsun. Nikol müəllim də buna çalışır.

**Bəs biz nə etməliyik? Nikol bizi növbəti dalana yönəltməyə çalışır, bunun qarşısını almağın yolu da təşəbbüsü ondan almaq və elə situasiya yaratmaqdır ki, Ermənistan danışıqlara yüyürə-yüyürə gəlsin. Bunu necə etməyin yolunu isə hamımız bilirik...**

# Paşinyan oliqarxlara savaş açıb - aqibəti necə olacaq?

**Ermənistanın baş naziri Nikol Paşinyan hakimiyyətə gəldiyi ilk günlərdən oliqarxlara qarşı açdığı savaş güclənib. Onun bu müharibəsinin necə nəticələnəcəyi ilə bağlı müxtəlif fikirlər var. Hələ tam möhkəmlənməyən və kövrək olan Ermənistanın yeni hakimiyyətinin ciddi təhlükələr yaşaya biləcəyi qeyd olunur. Sirr deyil ki, istənilən ölkənin iqtidarı üçün bu tipli savaşlar çətin olur.**

## **Elçin Mirzəbəyli:** “Bunların şoudan uzağa gedəcəyini düşünmürəm”

## **Elşən Mustafayev:** “Oliqarxların xeyli hissəsi parlamentdə təmsil olunub”

**Politoloq Elçin Mirzəbəyli** hesab edir ki, Paşinyan siyasi şou düzənləyir: “Paşinyan oliqarxlara qarşı necə savaş aça bilər ki, onun kölgəsinə sığındığı Çarukyan Ermənistanın ən iri oliqarxı və inhisarçısıdır? Nikol Avropadan müəyyən qədər vəsait qoparmaq və Ermənistana investisiyalar cəlb etmək üçün siyasi şoular düzənləyə bilər. Amma bütün bunların şoudan uzağa gedəcəyini düşünmürəm. Paşinyanın ”proqram" adlandırdığı sənədin ayrı-ayrı müddəaları ilə tanış olmuşam. Sizi əmin edirəm ki, Azərbaycanın müəyyən iqtisadi biliklərə də sahib olan istənilən jurnalisti Paşinyan və komandasından daha yaxşı proqram hazırlaya bilər. Bu proqramda Ermənistanda görüləcək bütün işlər barəsində, o cümlədən korrupsiyaya qarşı mübarizə istiqamətində atılacaq addımlar haqqında da müəyyən istəklər ifadə olunur. Amma bütün bunların necə, hansı resurslar və mexanizmlər əsasında həyata keçiriləcəyi barədə danışılmır. Bu proqramdan daha çox Paşinyanın arzularına bənzəyir. Ermənistan parlamentinin vitse-spikeri Eduard Şarmazanovun qənaətinə görə, Paşinyanın təqdim etdiyi “proqram”, “qarşıya qoyulan hədəflərə çatmaq üçün mexanizmlərin, o cümlədən müddət və nəticələr haqqında fikirlərin yer almadığı, siyasi məsuliyyətin nəzərdə tutulmadığı arzular bəyannaməsidir”. Şarmazanovun Azərbaycana qarşı ritorikasını və tipik erməni həyasızlığını ifadə edən simasını sevməsəm də Paşinyanın proqramı ilə bağlı fikirlərinin həqiqəti əks etdirdiyini düşünürəm. Məsələn, Paşinyanın proqramında sənayenin və kənd təsərrüfatının inkişafı ilə bağlı heç nə yoxdur. Sadəcə qeyd olunur ki, “Ermənistanda sənaye inqilabi templə inkişaf edəcək”. Görünür Paşinyan Ermənistanda kənd təsərrüfatının inkişafı üçün əkin sahələrində kütləvi etiraz aksiyalarının keçirilməsini planlaşdırır. Bir müddət öncə “Serj get” şüarını səsləndirən kütlə isə əkin sahələrində “kənd təsərrüfatı,





inkişaf et” deyə bağıracaq və siyasi romantika ektazından məst olacaq. Ermənistanda siyasi romantika dövrü tezliklə geridə qalacaq. Bu ölkədə real iqtisadi irəliləyişə nail olmağın yolu Azərbaycan torpaqlarının işğaldan azad edilməsindən keçir. Ermənistan təbii resursu olmayan, yaradıldığı dövrdən yaradıcısının dotasiyası ilə yaşayan bir ölkədir. Paşinyanın korrupsiyaya qarşı mübarizə aparmaq üçün nə real gücü, nə də imkanı var. Nümunə gətirəcəyəm: Nikol Paşinyan Rusiya prezidenti ilə görüşündə ona Ermənistana ucuz qaz satdığı üçün təşəkkürünü bildirdi və qeyd etdi ki, o başa düşə bilmir ki, ölkəsində qaz əhaliyənə üçün bu qədər baha satılır. İndi Paşinyanın guya bilmədiyi məsələyə mən aydınlıq gətirim: Ermənistanı təbii qazla Rusiyanın “Qazprom” şirkətinin 100%-lik törəmə müəssisəsi olan “Qazprom Ermənistan” təchiz edir. Ölkənin 1682,2 km-lik magistral və köməkçi qaz kəmərləri “Qazprom”un mülkiyyətidir. “Qazprom” Ermənistanda tam inhisarçıdır. İndi Paşinyan “Qazprom”a qarşı hansı üsullarla və necə mübarizə aparacaq? Haradan qazı alacaq? Ehtimal edək ki, İrandan. O zaman bu qazı paylamaq üçün magistral və köməkçi qaz kəmərlərini (borularını) haradan alacaq? Ölkəni yenidən qazlaşdıracaq? Nə ilə? Hansı resurslarla? Eyni müqayisəni Ermənistanın elektrik şəbəkəsi haqqında da demək olar. Bu şəbəkənin də bütün səhmləri “Rusiya Vahid Enerji Sistemi” Aksioner Şirkətinin əlində cəmləşib. Nümunələrin sayını sonsuza qədər artırmaq olar. Ermənistanın sahibi Rusiya şirkətləridir. Bu şirkətlərə qarşı antikorrupsiya əməliyyatları isə şübhəsiz ki, Rusiyadan başladılmalıdır. Buna isə nəinki Paşinyanın, bütövlükdə Ermənistanın siyasi cameəsinin və əhalisinin gücü yetməz. Paşinyanın bütün addımları vaxt qazanılmasına hesablanıb. Nikol “siyasi romantika” dopinqinin təsir müddətini artırmaq üçün daha çox vədlər verməyə çalışır. Bütün bunlar isə kütləyə hesablanmış addımlardır".

**Beynəlxalq əlaqələr üzrə ekspert Elşən Mustafayev** bildirdi ki, Paşinyanın oliqarxlara savaş açması iki istiqamətdə planlarını həyata keçirtməyə xidmət edir: “Birincisi, doğrudan da kövrək bir hökumətə rəhbərlik edən Paşinyan mövqelərini möhkəmlədə bilməsə, istənilən səbəb üzündən hakimiyyətdən getməyə məcbur olacaq. Burada parlamentdə çoxluq olan digər partiyaların deputatları, Köçəryan, Sərkisyan dönəmində formalaşan iri həcmli kapitala malik oliqarxların rolu böyük ola bilər. Yeri gəlmişkən, oliqarxların xeyli hissəsi parlamentdə təmsil olunub. Odur ki, bu kompaniya ilə həmin oliqarxların bir hissəsini neytrallaşdırmağa , bir hissəsini isə özünə tərəf çəkməyə çalışacaq. Qısa müddət ərzində Respublikaçılar partiyasının deputatlarından 6 nəfərinin fraksiyadan istefaları hesab edirəm ki, bununla bağlıdır. İkincisi isə bu addımı ilə o, xalqa əvvəldən verdiyi sözlərə əməl etməsi mesajını verib. Bu da onun üçün çox vacibdir. Çünki zəif hökumətin möhkəmlənənə qədər xalqın dəstəyini itirməsi çox təhlükəlidir. Postsovet məkanında iki dövləti - Gürcüstanı və Ukraynanı göstərə bilərik ki, hakimiyyət dəyişikliyi məhz oliqarxlara qarşı mübarizə şüarı altında olub. Gürcüstanda Saakaşvili hakimiyyəti buna müəyyən qədər nail oldu. Amma orada bu istiqamətdə müsbət inqilabi dəyişikliklər olsa da, korrupsiyanın kökünü tam kəsmək mümkün olmadı. Ukraynada isə demək olar ki, heç nə dəyişmədi. Əslində Paşinyan istəsə belə korrupsiyanın qabağını bütünlüklə ala bilməyəcək. Çünki korrupsioner adlanan oliqarxların bəziləri yerdəyişmə etməyə çalışacaqlar və hökumət də onların bir qismini himayəsi altına alacaq. Sonrakı etapda da öncəki fəaliyyətlərini yeni üsullarla həyata keçirəcəklər. Amma Paşinyanın başladığı kampaniyanın özünə qarşı çevriləcəyi təhlükəsi də mümkün ola bilər. Burada daxili və xarici faktorları nəzərə almaq lazımdır. Rusiya ilə münasibətlərin real vəziyyəti bu məsələdə mühüm rol oynayacaq. Əyər Paşinyan Putinlə konkret maraqlarla bağlı razılığa gələcəksə və Kreml onun hakimiyyətdə qalmasına yardım edəcəksə, o zaman planlarını həyata keçirtmək və hakimiyyətdə qalması şanları yüksək olacaq. Yox, əgər faktiki olaraq belə bir dəstək olmayacaqsa, ölkə daxilində məhz həmin narazı oliqarxların və müxtəlif provokasiyalar vasitəsilə narazı salınacaq insanların vasitəsilə təzyiq üsulu işə salınacaq. Nəticədə hakimiyyət dəyişəcək”.

**❑ Cavanşir ABBASLI, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 127 (7016) 12 iyun 2018

# Trampın addımları Avropa ilə ticarət müharibəsinə gətirə bilər

## G7 sammitləri tarixində görünməmiş hadisə; biznes və Rusiya faktoru ABŞ-la tarixi müttəfiqlərini üz-üzə qoyur...

**Kanadanın Kvebek vilayətində G7 sammiti gərgin şəraitdə keçib və qalmaqalla yekunlaşıb. Belə ki, ABŞ prezidenti Donald Trampa qarşı sərt açıqlamalar səsləndirilib. Nəticədə G7 zirvəsi Trampın ev sahibi Kanadaya sərt iradlar bildirməsi və sammitin yekununda birgə bəyannaməyə imza atmaması ilə sona çatıb.**

**Tramp Kanadanın baş naziri Castin Tuderin keçirdiyi mətbuat konfransında ABŞ-ı qaralamaqda ittiham edib.** Bu dəfəki “G7" sammiti həmçinin ticarət tarifləri məsələsi ətrafında yaranmış mübahisələrə görə anlaşılmazlıq şəraitində keçib. Baş nazir Caster Tuder isə ABŞ-ın atdığı addımlara cavab olaraq iyulun 1-dən Kanada tərəfindən xarici ticarətdə yeni tariflərin yeridiləcəyini vəd edib. Tuder Trampın xarici ticarətdə yeni tariflər yeritmək qərarını və bunu milli təhlükəsizlik maraqları ilə əsaslandırmasını ”həqarət" adlandırıb.

Fransa prezidenti Emmanuel Makronun ofisi sammitdə Trampın mövqeyinə cavab olaraq “Beynəlxalq əməkdaşlıq əsəb və düşünülməmiş bəyanatlarla diktə edilə bilməz” açıqlaması verib.

“Röyters”ə açıqlama verən ABŞ rəsmisi isə Kanada baş naziri Justin Trüdonun ABŞ-ı “kürəyindən bıçaqladığını” bildirib.

Qeyd edək ki, sammitin əsas mövzusu yeni ticarət münaqişələri olub. G7-nin üzvü olan altı ölkənin maliyyə nazirləri sammitöncəsi keçirilən toplantıda Vaşingtonu polad və alüminium idxalı üçün yeni vergiləri ləğv etməyə çağırmışdı.

Xatırladaq ki, ABŞ-ın 1 iyundan Avropa Birliyi, Kanada və Meksikadan idxal edilən polada 25, alüminiuma isə 10 faiz əlavə gömrük vergisi tətbiq etməyə başlayıb. Bu addımın xüsusən Avropa ilə ABŞ arasında ticarət müharibələri başlaması səbəb ola biləcəyi vurğulanıb.

Almaniya kansleri Angela Merkel isə G8-ə qayıtması üçün Rusiya qarşısında şərt qoyub. Kansler deyib ki, Rusiyanın “Böyük səkkizlik” (G8) formatında danışıqlar masasına qayıtması, yalnız Ukrayna münaqişəsinin həlli üzrə Minsk razılaşmalarının icrasında irəliləyiş olarsa mümkündür.




ABŞ prezidenti isə Rusiyasız G7 ölkələri liderlərinin görüşünün keçirilməsini əhəmiyyətsiz adlandıraraq bəyan etmişdi ki, Rusiya mütləq “Böyük səkkizliyin” tərkibinə qaytarılmalıdır. Lakin Avropa ölkələri buna qəti etiraz ediblər. Ekspertlər hesab edir ki, Rusiya faktoru ABŞ-la müttəfiqlərinin qarşı-qarşıya qoymaqdadır. G7 sammiti bunu bir daha nümayiş etdirmiş oldu.

**Politoloq Qabil Hüseynli** “Yeni Müsavat”a şərhində bildirdi ki, bir zamanlar SSRİ-də Qərbi Avropa ittifaqının içərisinə qarşıdurma toxumu səpməyə və Avropanı ABŞ-dan ayırmağa çalışırdı: “O dövrdə Amerikanın prezidentləri kifayət qədər ağıllı adamlar idilər, Sovet İttifaqının planlarına uymurdular, hətta ona cavab reaksiyası göstərirdilər. Ona görə də SSRİ istəyinə nail ola bilmədi. Amma indi Donald Trampın gəlişi ilə Amerika siyasəti baş-ayaq olub desək, səhv etmərik. O hakimiyyətə gəldikdən sonra haqqında müxtəlif ittihamlar, o cümlədən Rusiyanın onun seçilməsinə yardım etməsi kimi xəbərlər müəyyən qədər özünü doğrultdu. ABŞ-la Avropa İttifaqı arasında münasibətlər gərginləşib, NATO arasında münasibətlərdə soyuqluq yaranıb. Kanadada keçirilən G7 sammiti isə bu əməkdaşlıq platformasında da ABŞ-ın sayəsində çat yaranmış oldu. Tarixində ilk dəfədir ki, ABŞ prezidenti G7 sammitində qəbul edilən yekun bəyannaməyə imza atmır. Trampın Qərbi Avropa dövlətləri ilə ticarət əlaqələri məsələsində tutduğu mövqe prezident mövqeyindən daha çox, biznesmen mövqeyinə bənzəyir. G7 sammitində yaranan fikir ayrılıqlarının səbəblərindən biri də budur. Trampın son vaxtlar atdığı bir sıra addımlar Qərbi Avropa dövlətləri ilə ticarət müharibəsinə bənzər vəziyyətin yaranmasına gətirib çıxarıb. Bəzi beynəlxalq səviyyəli siyasi analitiklər hesab edir ki, Rusiya Qərbi Avropa ilə ABŞ arasında qarşıdurma salmağa çalışır və Trampın addımları Rusiyanın bu istəyini müəyyən qədər reallaşdırmış olub. Belə getsə, Rusiyanın nə isə etməsinə ehtiyac qalmayacaq, çünki Rusiyanın arzuladıqlarını Tramp həyata keçirir”.

Politoloq hesab edir ki, Qərbi Avropa ölkələrinə qarşı bu qədər sərt və onların üsyanına səbəb ola biləcək siyasət yürüdülməsi başa düşülən deyil: “ABŞ-ın qarşısında Çin kimi, Rusiya kimi, İran kimi, Şimali Koreya kimi problemləri olduğu bir vaxtda prezidentin Qərbi Avropa ölkələrlə münasibətləri gərginləşdirməsi başadüşülən deyil. Əslində hazırkı situasiyada ABŞ-a Almaniya, Fransa, Britaniya kimi müttəfiqlərlə ixtilaf yaratmaq yox, münasibətləri sıxlaşdırmaq daha çox gərəkdir. Mən belə hesab edirəm ki, Tramp axıra qədər bu yanlış siyasəti davam etdirə və NATO ölkələri arasında siyasi böhrana, parçalanmaya gətirib çıxara biləcək siyasəti axıra qədər yürüdə bilər. Çünki ABŞ-da prezidentin hüdudsuz hakimiyyəti yoxdur. Onu bəlli bir çərçivəyə salmağa imkanları olan strukturlar var. Bu strukturlar istədikləri anda onu ram edəcəklər”.

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**

# “Türkiyə Kandil dağında PKK terror təşkilatına qarşı əməliyyata başlayıb” - Ərdoğan

**Türkiyə ordusu İraqın şimalında, PKK terror təşkilatının əsas bazalarının yerləşdiyi Kandil dağında əməliyyata başlayıb.**



APA-nın Türkiyənin NTV telekanalına istinadən verdiyi məlumata görə, bunu Niğde şəhərində seçkiqabağı təşviqat kampaniyası çərçivəsində keçirilən mitinqdə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.

**R.T.Ərdoğan bildirib ki, PKK terror təşkilatının Kandil dağındakı 14 mövqeyi 20 hərbi təyyarə tərəfindən bombalanaraq məhv edilib:** “Bu əməliyyat bitmədi, davam edəcək. Hədəfimiz terror bataqlığının ən böyüyünü qurutmaqdır. Kandil ölkəmiz və millətimiz üçün artıq bir təhdid, terror mənbəyi olmaqdan çıxarılacaq. Kandildəki terror bataqlığını da Suriyanın Afrin, Cerablus, Əl-Bab və Azez bölgələrində olduğu kimi, qurudacağıq”.

# Rus tələsindəki “pendir”



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Qarabağ müharibəsində “qalib” ermənilərin məğlub, miskin durumu barədə artıq bütün dünya bilir. Dünyaya blokadadan car çəkən də yenə “qalib” Ermənistandır, Azərbaycan yox. Buna çox vaxt “Pirr qələbəsi” deyirlər.**

Allah kəssin elə qələbəni ki, o sənin millətinə yalnızca məhrumiyyətlər gətirir. Bədbəxt erməni. Müharibədə “qalib” deyil, məğlub olsaydı, indi qat-qat yaxşı, rifah içində yaşayırdı.

“Nə oldu, deyirdiniz ki, azərbaycanlılar bizi yaşamağa qoymur. Bəs indi niyə kütləvi şəkildə çıxıb gedirsiniz?” Bu sözlər Kanadada yaşayan erməni yazıçı-publisist Vaaqn Karapetyanın bu günlərdə öz soydaşlarına ünvanlandığı video-müraciətdəndir.

Erməni publisist bir daha öz xalqının gözünü açmağa, ona reallıqları göstərməyə çalışıb. Ermənistan və Qarabağ ermənilərinin 30 ildir bir qrup avantüristin girovu olduğunu deyib. Azərbaycan ərazisinə girməyin səhv olduğunu söyləyib.

“Ermənilər elə bilir ki, Qarabağ de-fakto onlarındır. Amma yanılırlar. Qarabağ de-fakto Rusiyanındır, rusun tələyə qoyduğu pendirdir”. Bunu da o deyib. Sonda isə nə qədər gec deyil, öz millətini etdiyi səhvi düzəltməyə, Azərbaycanla barışığa çağırıb, arzu edib ki, Azərbaycan, Gürcüstan və Ermənistan öz potensialını birləşdirsin, üç xalq vahid “beyin mərkəzi” yaratsın və Cənubi Qafqaz Yer üzündə cənnətə çevrilsin.

Düz sözə nə deyəsən? Zatən, üç ölkədən ikisi - Azərbaycan və Gürcüstan on illərdir əməkdaşlıq, dostluq, barış və iş birliyi içindədir. Elə bu gün qardaş Türkiyədə, Əskişəhərdə üç ölkə liderlərinin iştirakı ilə Ermənistandan yan keçəcək Cənub Qaz Dəhlizinin ikinci mühüm hissəsi - TANAP-ın təntənəli açılış mərasimi olacaq. Bu törənə Ermənistan rəhbəri də qatıla, qaz kəməri Ermənistan ərazisindən də keçə bilərdi. Eləcə də ondan yan ötən digər iri, strateji əhəmiyyətli neft-qaz, dəmiryol xətləri.

Ermənistan guya Dağlıq Qarabağı qazanmaqla görün nələri itirib - kasad büdcəsinə girəcək milyardları, öz xalqının rifahını və mütluluğunu, təhlükəsizlik içində yaşam şansını, bütövlükdə gələcəyini! Bunlar - bir toplum üçün, onun varlığı üçün hər şeydir. Bunu hamıdan yaxşı Karapetyan kimi erməni aydınları anlayır. O üzdən erməni yazıçı haqlı olaraq, Qarabağ avantürasına görə məhz öz xalqını suçlu sayır, səhvi də öncə onun düzəltməli olduğunu deyir.

Əfsus ki, belə erməni aydınları azdır. Yaxud kifayət qədər olsa da, səslərini çıxarmağa qorxurlar. Çünki gerçəyi deyən soydaşlarını əksəriyyət satqın, “türkləşmiş erməni” adlandırıb damğalayır, terrorla, ölümlə hədələyir. Keşkə, ermənilərin hamısı beləcə “türkləşəydi”. Onda özləri də xilas olar, böyük bir region isə daha rahat nəfəs alardı...

Nəqliyyat, kommunikasiya arteriyaları, neft-qaz kəmərləri istənilən bölgənin “qan damarları”, “kapillyarları” sayılır. Onlarsız heç bir müasir ölkənin iqtisadi həyatı, ayaqda durması mümkün deyil. Ermənistan isə öz günahı üzündən on illərdir böyük “qan dövranı”dan kənarda qalıb, qansızlaşıb. Qan işləməyən, anemiyalı nahiyələr isə, tibbi terminlə desək, gec-tez nekrozlaşmağa, yəni çürüməyə və sıradan çıxmağa məhkumdur.

Öz qapıbir qonşuları - Azərbaycan və Türkiyəni qoyub, hələ də ümidini heç bir quru əlaqəsinin olmadığı Rusiyaya bağlayan, tələdəki “pendiri” götürməyə boş yerə cəhdlər edən işğalçı ölkənin ola bilsin dirçəlmə şansı hələ qalır - nə barədə ki, yazıçı Karapetyan da bir daha öz xalqına çağırış edir.

Bu yerdə yada yazıçı Rüstəm İbrahimbəyovun da Qarabağla bağlı fikirləri düşür. Müsahibələrinin birində o, demişdi ki, “Mən ermənilərin Dağlıq Qarabağa haqqı olmadığını iddia edə bilmərəm”. İndi bu - “Qarabağ ermənilərə məxsus deyil” deyən erməni Karapetyan, o da “Qarabağa erməninin haqqı var” söyləyən “azərbaycanlı” İbrahimbəyov. Roma papasından artıq katolik olmaq cəhdi yəni.

**Kim indi daha çox haqqı deyir - erməni Karapetyan, yoxsa “azərbaycanlı” İbrahimbəyov? Doğrudan da, “Kişi dilinin altında gizlənib” (Həzrəti Əli (ə)). Danışdıqca tanınar...**

YENİ MÜSAVAT
N 127 (7016) 12 iyun 2018



# Cücü dərmanı

Zamin HACI
zaminhaci@gmail.com

Yaxud, Styopa dayı haqda unutduğum fakt
"Handa bir xaç əhli varsa qamusun seyr
eylədim,
Bulmadım mən sən təki bir cani-canan, erməni".
***(Nəsimi)***

**Ötən yazımda Azərbaycanda erməni Stepan Şaumyana ümumxalq məhəbbətimizin fontan vurmasından, SSRİ zamanında onun adına bir deyil, iki rayon qayırmağımıza toxunmuşdum. Hörmətli oxucularımızdan deputat Aqil Abbasın zəngi isə məni şoka saldı, sən demə, bizdə Şaumyanın adına 2 yox, 3 böyük yaşayış məskəni düzəldilibmiş: unutduğum, fikir vermədiyim adqoyma obyekti Stepanakert şəhəridir. Dağlıq Qarabağın mərkəzi, sovetlərə qədər Xankəndi adını daşıyan obamız. Buraya 1923-cü ildə kommunistlər Stepan Şaumyanın adını qoymuşdular.**

Buyurun. Hansı millətin ərazisində onun anasını ağladan ən qəddar düşmənlərindən, ən murdar tiplərdən birinə 3 zırpı yaşayış məskəni "bağışlamaq" olardı? Doğrudanmı 70 illik sovet hakimiyyəti dönəmində bir nəfərimizin də ağlına gəlməyib ki, bu təhqirə etiraz eləsin? Tutaq ki, biz uşaq olmuşuq, qanmamışıq, bəs ağsaqqal-ağbirçəklərimizə nə sözünüz? Bəyəm onlar Şaumyanın mart qırğınları zamanı azərbaycanlıların qanını axıdan əsas başkəsənlərdən biri olduğunu bilmirdilər? Bilən də susurdu, bilməyən də. Nəticə məlumdur.

İndi mən fikirləşirəm ki, bəlkə də bizdə Stepan Şaumyanın atası Qriqori-nin, oğlu Suren-in də adına nəsə obyektlər olmuşdur, yadımızdan çıxarmışıq. Unutqan millətik axı. Yaddaşı olmayan toplumu aldatmaq, fırlatmaq olduqca asandır.

Elə bu həftə başqa bir dostumuz 1936-cı ildə çəkilən sovet filmi "Partiya bileti"nin linkini atmışdı. Baxdım. O dövrün mənzərəsini saxta pafosla da olsa pis göstərmir. Filmdə partbileti itirdiyi üçün arvadı Kommunist Partiyası üzvlüyündən qovurlar, bu zaman iclasda onu tənqid edənlərdən biri əri olur. Adi sovet həyat tərzi. Qardaşın qardaşı, oğulun atanı satdığı alçaq bir rejim idi. Ancaq indi çox adamı danışdırsan Stalini kor-koranə tərifləyəcəkdir. Elə bu unutqanlıq üzündən hazırda yenə qardaş qardaşdan, ata oğuldan imtina ərizəsi yazır. "Xaricdə və məhbəsdə qohumum yoxdur" - sovet tərcümeyi-hallarının pozulmaz bəndi yenidən aktualdır.

Ümumiyyətlə, hara baxsan dəyişən bir şey görünmür. Yalnız bayrağın rəngində müəyyən dəyişiklik edilmişdi, onu da külək cırıbdır, daha dirəyi boş qalmışdır. İki gün qabaq Saatlıda pambıq tarlasında kimyəvi maddədən zəhərlənən 20-dən çox şəxs ağır vəziyyətdə Bakıya gətirildi. Sovet vaxtı da pambıq tarlalarında bizi müxtəlif zəhərli maddələrlə boğurdular. Xalq arasında rəvayətə bənzər əhvalatlar yayılırdı, deyirdilər bir bərdəli Moskvada rusla danışır, rus inanmır ki, o, Bərdədən gəlibdir: "Bilirsən, mən 15 il qabaq sizin o rayonda "Kukuruznik" təyyarə sürmüşəm, pambıq tarlalarına dərman səpirdim. Ora o qədər zəhər səpmişəm ki, yaxın yüz ildə Bərdədə heç bir insan yaşamalı deyil". Xlorofos, DDT, göy daş məhlulu və sairə - indi yadıma düşənlər bunlardır - sovet dövründə SSRİ bizim kəndlərə, torpaqlara cürbəcür zəhərli maddələri kefi istəyən qədər çiləyirdi. Təki pambıq, üzüm salamat qalsın, kəndlinin canı cəhənnəmə. Məktəbi bağlayıb uşaqları tarla becərməyə, qul əməyinə basırdılar. Yadıma gəlir, bir dəfə üzümlüyə sarı rəngli zəhər maddəsi vurmuşdular, biz sahəyə girəndə hamını yuxu basmışdı. Hələ də fikirləşirəm görəsən o hansı kimyəvi silah idi, bizim körpə orqanizmimizdə hansı izləri buraxmışdır... Kimdən soruşacaqsan? Alim yox, səhiyyə yox... O vaxt alim və həkimləri də elə tarlaya basıb işlədirdilər.

Mövzunu bağlamaq üçün ən yaxşı xəbər isə Rusiyadan gəlibdir. Deyir, orda Rusiya Kommunist Partiyasının müdiri Gennadi Zyuqanov ən yaşlı kommunisti təbrik edibdir. Kişinin 100 yaşı varmış, adı isə Məmməd Cəbrayılovdur. Bəli, yanılmamısınız, Rusiyanın ən qoca kommunisti azərbaycanlı imiş. Yaxşı iş deyil ki, bacarmayaq. Faşizm qədər qanlı bir rejim qurmuş kommunistlərə, üstəlik sənin dövlətini yıxmış, ananı ağlar qoymuş bir ideolojiyə 100 yaşında da tapınmaq ancaq bizimkilərin qanacağı olardı. Bir nəfər də tanıyırdım, 1993-cü ildə - SSRİ dağılandan 2 il sonra öz cızmaqaralarına idiot fəxriylə "Sov.İKP üzvü" imzası qoyurdu, ancaq indi axmaq universitetlərimizin birində kafedra müdiri işləyir.

Kim bilir, bəlkə elə bu cür lazımdır? Axı dinozavrların nəsli kəsilib, buqələmunlar isə yaşayırlar. Bəlkə elə bizim məsələni cücü dərmanıyla həll eləmək lazımdır?




# Ermənistanda inqilab sonrası eyforiya bitir: əks-inqilab qapıda

## İşğalçı ölkədə Paşinyan hökumətindən məyusluq artır, küçə etirazları səngimir; Moskva fürsət gözləyir; erməni nəşrindən SOS: "Ukrayna inqilabından dərs götürməliyik, Qərb bizə lazımi dəstəyi verməyəcək..."

**Nikol Paşinyanın baş nazir postunda 1 ayı tamam oldu. Ötən həftə o, yeni hökumətin proqramını parlamentə təqdim elədi. Əksər təhlilçilərə görə, bu reallıqlardan və iqtisadi göstəricilərdən uzaq, quru vədlər və pafos üzərində qurulmuş bir sənəddir. Belə çıxır ki, Paşinyanın başından inqilab ovqatı çıxmayıb və problemlərin həllinə o, hələ də bu prizmadan baxır.**

Zaman isə gedir. Bir sıra erməni siyasi şərhçiləri ötən bir ayın erməni xalqının gözləntilərini bir elə doğrultmadığı qənaətindədirlər. Müşahidələr göstərir ki, Ermənistanda güclü "alkoqol sonrakı ayılma" dövrü ("otrezvleniye") də artıq başlayıb. Narazı əhali yavaş-yavaş anlamağa başlayıb ki, Paşinyanın əlində sehrli çubuq yoxdur və vəd edilən cənnətlər tezliklə olmayacaq.

Bu, heç mümkün də deyil. Çünki blokada şəraitində olan, dünya okeanına çıxışdan və Rusiya ilə quru əlaqədən məhrum, ən əsası Moskvanın vassalı olan Ermənistanda dərin iqtisadi islahatlar aparıb, ölkəni İsveçrəyə, Norveçə çevirmək mümkün deyil. Bu da bir göstəricidir ki, artıq Paşinyanın çağırışlarına rəğmən, ölkədə etirazlar davam edir.

**Məsələn, dünən Ermənistan Texut və Şnox kənd sakinləri Texut QSC-ə gedən yolları səhər saatlardan etibarən bağlayıb (Axar.az) Onlar şirkətdən məşğulluq tələb ediblər.** Aksiya iştirakçılarından birinin sözlərinə görə, onlar hər növ torpaq sahəsindən (bağ, əkin, meşə) məhrum olublar, indi isə üstəlik işdən də qovulublar. "Kreditlər götürmüşük, ancaq bizim haqqımızda heç kim düşünmür. Nə üçün bizdən aldıqları torpaq sahələrində başqaları çalışmalıdır? Yollar bizim suallarımıza cavab veriləna qədər bağlı saxlanılacaq", - aksiya iştirakçıları bildiriblər.

*****

**"Siyasi və inqilabi eyforiyanın alkoqol-sonrakı sindroma bənzər bir xüsusiyyəti var: hər iki halda qəzəb hissinə keçən ayılma baş verir, çünki bəlli olur ki, gözləntilər boşuna, reallıq isə kədərli imiş. Biz bunu sadəcə, qəbul eləmək zorundayıq. Ələlxüsus da gözümüzün önündə başqa dövlətlərin nümunələri varsa. Məsələn, Ukrayna".**

"Yeni Müasavat"ın məlumatına görə, bu barədə armenianreport.com nəşrində post-inqilab dövrünün gözləntilərinə həsr olunmuş "Eyforiyanın əsiriyində" sərlövhəli məqalədə deyilir.

Yazıda daha sonra bildirilir: "Müstəqillik qazanandan bu yana Ukraynaya Qərb çox şey vəd elədi. Lakin ölkə üçün xüsusən də həlledici və kulminasiya məqamlarında Qərbdən real kömək gəlmədi. Rusiyanın Krımı ilhaq eləməsinin və Donbasda müharibəni qızışdırmasının səbəbi də budur. Qərb sadəcə, Rusiya ilə döyüşməkdən qorxdu. O, əlbəttə ki, Rusiyaya qarşı sanksiyalar tətbiq elədi. Ancaq bunu nə vaxt elədi? O vaxt ki, Rusiya silahı olan "BUK"dan Malayziyaya məxsus, hollandların uçduğu "Boinq" sərnişin təyyarəsi vurulanda. Yəni yalnız avropalıların həlak olması ABŞ və köhnə Avropa siyasətçilərini sözdən işə keçməyə vadar elədi. Bununla belə, hələ də Rusiyaya qarşı sektoral sanksiyalar tətbiq olunmayıb, Vladimir Putin və ətrafının Qərb banklarındakı hesabları dondurulmayıb. Üstəlik, Rusiyaya qarşı sanksiyaları qaldırmaqla bağlı bir qisim avropalının səsi getdikcə daha ucadan çıxır. Ukraynada da belə görünür ki, ayılma baş verməkdədir. Orada artıq başa düşürlər ki, Qərb Ukraynadan yalnız öz məqsədləri umun istifadə edir".

**Müəllifə görə, Ukraynada yaşananlar ermənilərə də dərs olmalıdır.** "Ona görə ki, Qərb siyasətçilərinin sözlərinə, vədlərinə elə də inanmağa dəyməz. Onların öz hədələri, öz hesablamaları var. Ermənistan da onları müstəsna olaraq öz planlarında istifadə oluna biləcək ölkə kimi maraqlandırır. Vəssalam. Ermənistanın maraqları barədə onlar heç vaxt düşünmək belə istəməyəcəklər. Uzağı, bizim Rusiya ilə münasibətlərimizi qəlizləşdirib bundan dividentlər almağa çalışacaqlar. Yox, biz Qərbi pisləməyə və hamılıqla Rusiya ilə dostluq eləməyə çağırmırıq. Biz istəyirik, heç kəsin bir şeydə illüziyası olmasın: heç kim bizə pulsuz kömək etməyəcək. Belə bir şey yoxdur, olmayıb, olmayacaq da".

*****

**Qalır indi bu reallığı Ermənistanın yeni baş naziri Nikol Paşinyanın nə dərəcədə ciddiyə alması.** Hələ ki, o, Rusiya və Qərb arasında balansı saxlamağa çalışır - altdan-altdan öz komandasını qərbyönlü kadrlardan, "Amerikanın uşaqları"ndan təşkil eləsə də.

Maraqlıdır, görəsən Moskva öz satellitinin bu nankorluğu qarşısında ona hansı ağır bədəli ödədəcək? Qərbə, Avropa Birliyinə kurs götürən Ukrayna Krımı itirdi, Donbas da faktiki itirilmiş kimidir. Monoetnik Ermənistanın muxtar bölgəsi yoxdur. Amma erməni işğalında olan Dağlıq Qarabağ var - istənilən erməni siyasətçisinin karyerasını bir anda sıfırlayacaq Qarabağ.

**Bunu kim bilməsə də Paşinyan fərqində olmamış deyil. Özünün qərbçi komandası ilə əgər o, tezliklə köklü islahatlara nail olmasa, ən əsası, əhalinin güzəranı qısa zamanda inqilabdan əvvəlki səviyyədən yuxarı qalxmasa, böyük məyusluq fonunda revanşist qüvvələrin əks-inqilab ssenarisi qaçılmaz olacaq. Rusiya inqilaba müəlliflik eləmədi, amma "Amerika uşaqları"na qarşı əks-inqilaba məmnuniyyətlə dirijorluq edəcək...**

**❑ Siyasət şöbəsi, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 127 (7016) 12 iyun 2018

# "TAP Albaniyada böyük miqyaslı ilk enerji layihəsidir" - nazir

## Trans Adriatik təbii qaz boru kəməri (TAP) layihəsi Albaniyanın qazlaşdırılmasına və ümumilikdə enerji sektoruna müsbət təsir göstərəcək"

**"APA-Economics"in TAP konsorsiumunun rəsmi saytına istinadən verdiyi məlumata görə, bunu Albaniyanın infrastruktur və energetika naziri Damian Gjiknuri TAP-ın Albaniyanın Fier şəhərindəki kompressor stansiyasında turbo kompressorların quraşdırılması mərasimində bildirib.**




O, TAP-ın Albaniya iqtisadiyyatı və ölkənin gələcəyi üçün strateji əhəmiyyətini vurğulayaraq bu layihənin Albaniyada bu miqyasda tətbiq olunan ilk enerji layihəsidir və onun inkişafı təqdirəlayiqdir.

TAP-ın ölkəyə müsbət təsiri barədə danışan D.Gjiknuri həm alban işçi qüvvəsinin, həm də yerli şirkətlərin layihədə iştirakını yüksək qiymətləndirib.

Qeyd edək ki, TAP layihəsi Avropa Birliyinin enerji təhlükəsizliyi və enerji mənbələrinin diversifikasiyasına görə strateji məqsədlərində əsas rolu oynayır. Təbii qazın Azərbaycandan Avropa bazarlarına ixracının ən qısa və birbaşa marşrutunu TAP təşkil edir. TAP layihəsi üzrə Albaniya, İtaliya və Yunanıstan arasında "Hökumətlərarası Saziş" 2013-cü ilin fevral ayında imzalanıb.

TAP-ın ilkin illik daşıma qabiliyyəti 10 mlrd. kubmetrdir (illik 20 mlrd. kubmetrədək artırıla bilər).

**Layihə üzrə hazırkı pay bölgüsü:** "Cənub Qaz Dəhlizi" QSC - 20%, BP - 20%, "Snam" - 20%, "Fluxys" - 19%, "Enagas" - 16%, "Axpo" - 5%.

# «Tit-for-tat tariffs» siyasəti sürət yığır - Avropa və ABŞ-ın savaşı dünyanı çöküşə aparır



**İbrahim MƏMMƏDOV,**
**Tarix üzrə fəlsəfə doktoru**

## Qlobal iqtisadiyyat yeni resessiyaya doğru istiqamət götürüb: "Tit-for-tat", yəni "qisasa qisas" adlanan cavab tədbirləri neqativ gözləntiləri daha da ağırlaşdırır

**Ötən həftə qlobal ticarət müharibəsinin coğrafiyası bütün avrasiya və Amerika qitəsini əhatə etməklə daha da dərinləşməyə meyl etdi. Dövlətlərin qlobal ticarət siyasətində iyunun 1-dən 10-dək baş verənlər proqnozların daha da pisləşməsinə səbəb olaraq qlobal iqtisadiyyatı geriyə çəkəcək. Hələ martda bəzi tədqiqat mərkəzləri qlobal iqtisadi artım proqnozunu azaltmışdılar (fevraldakı 3.3%-dən martda 3.2%-ə qədər). O zaman D.Tramp Avropadan polad və alüminium idxalına tarifin artırılacağı haqda bəyanat vermişdi, amma iyunun 1-dək vaxt var idi. Odur ki, tarif müharibəsinin olmayacağına dair müsbət gözləntilər qalırdı. Müsbət gözləntilər isə resessiya riski ehtimalını azaldırdı.**

Ancaq iyunun 1-dən ABŞ-ın Avropa polad və alüminiumuna yüksək tarifləri qüvvəyə mindi, yəni neqativ gözlənti doğruldu. Bunun ardınca Avropa İttifaqı ABŞ-dan idxal olunan - Harley Devidson motosikllərindən cins paltar, quş əti və portağal suyuna qədər, 2.8 milyard avro dəyərində məhsullara tarifi yüksəltdi. "Tit-for-tat", yəni "qisasa qisas" adlanan cavab tədbirlər neqativ gözləntiləri daha da ağırlaşdırdı. Nəhayət son olaraq, Donald Trampın "Böyük yeddilər"in Kanadadakı görüşünün yekun sənədini imzalmaqdan imtina etməsi, daha sonra qarşılıqlı ittihamların səsləndirilməsi vəziyyəti daha da ağırlaşdırdı. Dövlətlərin ticarət siyasətinin yaratdığı qlobal risk bütün başqa riskləri üstələdi. Artıq resessiya gözləntiləri yenidən artmağa başlayıb.

Resessiya isə Avropa İttifaqında: **1)** İstehsalın aşağı düşməsi, **2)** iş yerlərinin bağlanması, **3)** alıcılıq qabiliyyətinin məhdudlaşması, nəhayət, **4)** ABŞ-la Avropa İttifaqı arasındakı ticarət müharibəsi səbəbindən avronun dəyər itirməsi deməkdir.

Avro artıq dəyər itirməyə başlayıb. Səbəb bir tərəfdən ABŞ-la ticarət müharibəsinin kəskinləşməsi fonunda neqativ iqtisadi gözləntilərin artması, o biri tərəfdən də Aİ-nin üçüncü iqtisadiyyatına malik İtaliyada Avropa İttifaqına və vahid valyuta olaraq avroya mənfi münasibəti olan siyasi qüvvənin hakimiyyətə gəlməsidir. Odur ki, avronun dəyər itirməsi tendensiyasının üzümüzə gələn günlərdə davam edəcəyini gözləmək olar.

**Ticarət siyasətindəki böhran maliyyə və iqtisadi riskləri artırmaqla neftin də qiymətinin ucuzlaşmasına səbəb ola bilər. Resessiya istehsalı aşağı salmaqla neftə tələbatı da azaldır.**

# Ərəblər Kral Abdullahı dizi üstə gətirdilər

## İordaniya böhranına son qoymaq üçün toplaşan ərəb liderlər Abdullaha 2,5 milyard dollar yardım sözü verdilər, amma nəyin qarşılığında?

**Ərəb ölkələri İordaniyanı "xilas etdilər". Məkkədə keçirilən sammitdə Səudiyyə Ərəbistanı, Küveyt, BƏƏ İordaniyaya 2,5 milyard dollar dəyərində yardım edilməsi haqda qərar qəbul edib. xatırladaq ki. 4 ölkə Məkkədə məhz İordaniyanın maliyyə problemini həll etmək üçün toplaşmışdı.**



Məkkədə əs-Səfa sarayında keçirilən toplantıda kral Salman, Küveyt əmiri Şeyx əs-Sabah, BƏƏ vitse-prezidenti və Dubay əmiri Şeyx Məhəmməd bin Raşid əl-Maktum və İordaniya kralı Abdullah iştirak edib. 2,5 milyard dollar dəyərində yardım 5 il müddətinə veriləcək və Beynəlxalq Valyuta Fondunun İordaniyadan tələb etdiyi kəmər sıxma siyasəti nəticəsində yaranacaq kəsiri aradan qaldıracaq. Səudiyyə Ərəbistanı rəsmi xəbər agentliyi SPA-nın yaydığı xəbərdə qeyd olunur ki, kral Abdullah yardımdan dolayı hər üç liderə təşəkkür edib.

Xatırladaq ki, İordaniyada etirazlar bir neçə gün əvvəl başlayıb. BVF-nin İordaniya hökuməti qarşısında qoyduğu islahat və kəmər sıxma siyasəti tələbləri ölkədə ciddi etirazlara səbəb olub. Hökumət BVF-nin tələblərini reallaşdırmaq üçün vergi qanununda dəyişikliklərə gedib. Etirazlar baş nazir Hani əl-Mulkinin istefası ilə nəticələnib. Kral Abdullah artıq yeni hökumətin qurulmasını keçmiş təhsil naziri Ömər ər-Rəzzaza tapşırıb.

Ancaq bir çoxları son hadisələri məhz İordaniya hakimiyyətinə Fələstin mövzusunda təzyiq edilməsi prosesi kimi qiymətləndirirlər. Yaxın Şərqin neftsiz tək-tük ölkələrindən biri olan 8 milyonluq əhalisi olan və Qərbin ən yaxın tərəfdaşı hesab olunan İordaniyanın birdən birə qarışması şübhələrə səbəb olub və diqqətləri bu ölkəyə cəlb edib. Doğrudur, İordaniyada bu cür siyasi təlatümlər vaxtaşırı olur. 2011-ci ildə də baş verən aksiyalar hökumətin istefası ilə nəticələnmişdi. İndi isə gözlənilmədən İordaniyanın yenidən qarışması ciddi suallara səbəb olub. Bu ölkəni kim və niyə qarışdırır?

İordaniya Yaxın Şərqin mərkəzində, Suriya, Səudiyyə Ərəbistanı, Fələstinlə (İsrail) həmsərhəd olan, dənizə çıxışı demək olar ki, olmayan - Aqaba limanı vasitəsilə Qırmızı dənizə kiçik çıxışı nəzərə almasaq - 8 milyon əhalisi olan kiçik bir səhra ölkəsidir. Ancaq yerləşdiyi ərazi dünyanın diqqət mərkəzindədir.

İordaniya kiçik ölkə olsa da, Ərəb-İsrail münaqişəsində mühüm əhəmiyyət daşıyır. Çünki birincisi, ölkənin az qala yarısını fələstinlilər təşkil edir. İkincisi, İsrail və Fələstinlə sərhəd qonşuluğu var. Yəni, Fələstin münaqişəsinin həlli İordaniya ilə birbaşa bağlıdır. Doğrudur, İordaniya Haşimiləri uzun illər Fələstin məsələsindən öz hakimiyyətləri və dövlət maraqları üçün kart olaraq istifadə ediblər. Ancaq indi deyəsən vəziyyət daha ciddidir. Belə görünür ki, Fələstinlə bağlı çox mürəkkəb və ədalətsiz həll planına kral Abdullahın daxil edilməsi gündəmə gəlib. Ərəb və Qərb müttəfiqləri İordaniya Haşimilərini də bu plana razı salmaq istəyir. Kralsa hələ də dirənir.

Hətta hadisələrin ilk vaxtlarında Səudiyyə Ərəbistanı İordaniyaya 250 milyon dollarlıq yardımı kəsmişdi. Belə görünürdü ki, kral Abdullahdan ciddi tələblər olub. Həmin var, ötən ilin noyabrında əvvəlcə Livan baş naziri Həriri ər-Riyada dəvət edilib həbs olundu və istefa verdiyini bəyan etdi. Arxasınca Fələstin lideri ər-Riyada dəvət olundu və o zaman ərəb mətbuatı Vaşinqtonun da dəstəklədiyi yeni həll planının ortaya qoyulduğunu yazdı. Ancaq detallar məlum olmasa da, Mahmud Abbasın ər-Riyadda Krallıq rəhbərlərinə mənfi cavab verdiyi bilinir.

Çünki məhz Abbasın ər-Riyad səfərindən az sonra Səudiyyə Ərəbistanı hakimiyyəti Fələstin əsilli məşhur iş adamı, İordaniya və Səudiyyə Ərəbistanında böyük həcmdə yatırımları olan Sabih əl-Masrini həbs etdirdi. O zaman xəbərlərdə bildirilirdi ki, Səudiyyə və İordaniya vətəndaşlığı olan əl-Masri ər-Riyada iş toplantısı üçün getdiyi zaman, daha dəqiqi fələstinli iş adamı Əmana qayıdarkən ər-Riyad hava limanı yolunda saxlanılıb.

Sabih Masri mərkəzi ofisi İordaniyada yerləşən Ərəb Bankının rəhbəridir. Mətbuatda yer alan məlumatlara görə, ətrafı İrodaniya kralı ilə də yaxın əlaqələri olan Masriyə ər-Riyada getməməklə bağlı xəbərdarlıq edib.

Masrinin həbsinin əsl səbəbləri haqda məlumat verilməsə də, Fələstin hakimiyyətinin əsas sponsorlarından biri olan Ərəb Bankının rəhbərinin həbsinin İstanbuldakı Qüds sammitindən dərhal sonra baş verməsi diqqətləri cəlb edirdi.

İddialara görə, Səudiyyə Ərəbistanı vəliəhdi Məhəmməd ibn Salman ər-Riyada dəvət etdiyi İordaniya kralı Abdullahla danışaraq İstanbula getməməsini istəyib. Eləcə də, Misir prezidenti vasitəsilə Fələstin prezidenti Mahmud Abbasın İstanbula getməsinə mane olmaq istəyib. Ancaq Abdullah və Mahmud Abbas İstanbul sammitinə qatılaraq Qüds bəyannaməsinə dəstək verib. Masri isə bu hadisələrdən sonra həbs olunub. Ancaq onun həbsi yalnız İstanbul sammitinə görə olmayıb. Çünki iş adamı Fələstin hökumətinin sponsorlarından biridir və İordaniya iqtisadiyyatında ciddi payı var. Təsadüfi deyil ki, onun həbsi İordaniyada ciddi reaksiyalar doğurmuşdu. Belə görünür ki, Masrinin həbsi həm Abbasa, həm də Abdullaha təzyiq məqsədli olub.

**İndi isə ərəb liderləri kral Abdullahı Məkkəyə dəvət edərək ona külli miqdarda - 2,5 milyard dollar pul verirlər. Əcəba nədən? Nə baş verdi ki, bir il əvvələ qədər İordaniyaya yardımı kəsən və ölkədə siyasi böhrana səbəb olan ərəb liderləri birdən birə Əmmana qarşı səxavətli olmağa başladılar, kisələrin ağzını açıblar. Belə görünür ki, Abdullah nəyisə dəyişib. Ehtimal ki, təzyiqlər nəticə verib və Kral Abdullah ərəb planı ilə razılaşıb.**

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yenì Müsavat"**

YENİ MÜSAVAT
N 127 (7016) 12 iyun 2018

# Prezident Saatlıdakı kütləvi zəhərlənməni xüsusi nəzarətə götürdü

## Hüquqşünas: “Əgər orada biznesi quran fərdi sahibkardırsa, məsuliyyəti o daşıyır”



**Saatlıda pambıq tarlasında kütləvi zəhərlənmə baş verib. Belə ki, rayonun Sımada kəndində tarlada işləyən 23 nəfər kimyəvi zəhərlənmə diaqnozu ilə Saatlı rayon xəstəxanasının reanimasiya şöbəsinə yerləşdirilib. Onların pambıq tarlalarında alaq otlarına qarşı mübarizə aparmaq məqsədi ilə istifadə edilən kimyəvi maddədən zəhərləndikləri bildirilir.**

Zəhərlənənlər Sabirabad rayonunun Nəsimi kənd sakinləridir. Rayona Bakı şəhəri Toksikologiya Mərkəzinin həkim briqadası ezam olunub. Faktla bağlı hüquq-mühafizə orqanları tərəfindən araşdırma aparılır. Saatlı Rayon İcra Hakimiyyətindən bildiriblər ki, zəhərlənənlər arasında uşaq yoxdur.

İcra hakimiyyətindən “Yeni Müsavat”a bildirilib ki, zəhərlənməyə səbəbin nə olduğu araşdırılır. Hələ ki bu barədə konkret məlumat yoxdur.

Məsələ ilə bağlı Səhiyyə Nazirliyi də məlumat yayıb. Bildirilib ki, Saatlıda zəhərlənən pambıqçılardan 4-ü Bakıya, Toksikologiya Mərkəzinə gətirilib. Saatlı Rayon Mərkəzi Xəstəxanasında müalicə alan xəstələrdən ikisinin durumu isə qənaətbəxş olduğu üçün öz ərizələri əsasında evə buraxılıb. Qalanlarının vəziyyəti orta ağır olaraq qiymətləndirilir.

Məlumatlara görə, sahə dərmanlandıqdan sonra ora dərhal girmək qadağandır. Çünki həmin maddə insan sağlamlığına da zərər verə bilər. Ona görə də qaydaya görə sahə dərmanlanandan yalnız 20 gün sonra əraziyə girişə icazə verilməlidir. Görünür, Saatlıdakı tarlada işləyən şəxslər bu qaydalara məhəl qoymayıblar.

Bir ay ərzində artıq pambıqla bağlı ikinci bədbəxt hadisə baş verir. Belə ki, mayın 7-də Sabirabad rayonunun Şəhriyar kəndində traktorun qoşqusu aşmış, yaxınlıqdakı su kanalına aşmışdı. Hadisə nəticəsində bir ailənin 6 qadın üzvü ölüb, iki nəfər yaralanmışdı. Həmin ərəfədə də məsələ ciddi şəkildə sosial şəbəkələrdə, mediada müzakirə obyektinə çevrilmişdi. Bir çox şəxslər bildirirdilər ki, pambıq sahələrinə əkinçiləri daşımaq üçün xüsusi texnika ayrılmalı, oradakı işlərə nəzarət edilməlidir. Ancaq görünən budur ki, Sabirabaddakı bədbəxt hadisədən də nəticə çıxarılmayıb. Yenə də pambıq yığımına nəzarət lazımı səviyyədə olmayıb.

Baş Prokurorluq Saatlıda baş verən kütləvi zəhərlənmə faktı ilə bağlı məlumat yayıb.

Qurumun mətbuat xidmətindən APA-ya verilən məlumata görə, baş vermiş hadisə ilə bağlı dərhal Azərbaycan prezidenti İlham Əliyevə müvafiq məlumat verilib. Dövlət başçısının tapşırığına əsasən zəhərlənmiş şəxslərin müalicəsi nəzarətə götürülüb, zəhərlənmənin səbəblərinin araşdırılması məqsədi ilə Qida Təhlükəsizliyi Agentliyi, Kənd Təsərrüfatı, Səhiyyə və Ekologiya və Təbii Sərvətlər nazirliklərinin əməkdaşlarından ibarət komissiya rayona ezam edilib.

Faktla bağlı Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində Cinayət Məcəlləsinin 249.2 (bitki xəstəliklərinə və ziyanvericilərinə qarşı müəyyən edilmiş mübarizə qaydalarını pozma, ağır nəticələrə səbəb olduqda) və 314.2-ci (səhlənkarlıq, yəni vəzifəli şəxsin işə vicdansız və ya laqeyd münasibəti nəticəsində öz xidməti vəzifəsini yerinə yetirməməsi, ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işi başlanıb, bitki ziyanvericilərinə qarşı tətbiq edilmiş kimyəvi maddələrin nümunələri tarladan və anbardan müvafiq qaydada maddi sübut kimi götürülüb, iş üzrə məhkəmə-tibbi, məhkəmə-kimyəvi və digər ekspertizalar təyin edilib.

*Bəs indiki halda kimlər məsuliyyətə cəlb olunmalıdır?*

“Yeni Müsavat”a danışan **hüquqşünas Əsabəli Mustafayev** bildirib ki, ilk olaraq sahənin kimə məxsus olduğunu araşdırmaq lazımdır: “Əgər yer şəxsi mülkiyyətdə olan yerdirsə və orada biznesi quran fərdi sahibkardırsa, əlbəttə ki, məsuliyyəti o daşıyır. Çünki Əmək Məcəlləsi də tələb edir ki, işçi üçün müvafiq əmək şəraitinin yaradılmasını işə götürən təşkil edir. İstər orada işləyənlər qohum olsun, istərsə də kənar adamlar. Bunun heç bir əhəmiyyəti yoxdur. Qanun kim ki, işi təşkil edir və işə götürürsə müvafiq, təhlükəsiz iş şəraitini yaradılmasını da ondan tələb edir. Bu mənada əgər kimsə işi təşkil edibsə, oradakı bütün təhlükəsizlik qaydalarının yaradılmasına da o baxır. Əgər müəssisə dövlətindirsə, əlbəttə ki, bu zaman da həmin müəssisənin rəhbərliyi eyni şəraiti yaratmalıdır. Burada araşdırma aparılmalıdır ki, bu səhlənkarlıqdır, yoxsa ki, qəsddir. İnanmıram ki, bu, qəsd olsun. Yəqin ki, burada ehtiyatsızlıq, səhlənkarlıq var. Bütün bunlara görə məsuliyyəti təşkilatçı daşıyacaq və vurulan ziyanı da ödəyəcək. Məsələdə zərərin nəticəsi, ağırlığı da nəzərə alınır. Əgər maddi zərər varsa, zərər görən şəxslər müalicə alıb, xərc çəkiblərsə bunların hamısı nəzərə alınmaqla, şəxs məsuliyyət daşıyacaq”.

**Müəssisənin işçini nəqliyyat vasitəsi və digər bu kimi alətlərlə təmin etməsinə gəlincə isə hüquqşünas aşağıdakıları bildirdi:** “Bu, sahibkarla işçilər arasında qarşılıqlı razılaşmadan asılıdır. Tutaq ki, əgər sahibkar kiminləsə razılaşıbsa ki, sən öz nəqliyyatından istifadə edib, işə gəlib-gedəcəksən. Yaxud da sahibkarla işçilər müqavilə imzalayırlar ki, onları sahəyə ayrılmış nəqliyyat vasitəsi aparıb-gətirəcək. Deyə bilmərəm ki, bu hadisədə sahibkarla işçilərin arasında hansı razılaşma olub. Ona görə də günahı konkret olaraq sahibkarın üzərinə yıxmaq olmaz. Sabah məlum ola bilər ki, işçilər öz texnikası ilə ora gəlməyi öhdələrinə götürmüşdülər. Lakin sahəyə kommunikasiyaların olması, yolun çəkilməsi, su və qida əlbulu üçün müvafiq şəraitin yaradılması əmək şəraitinə aid olan məsələlərdir. Bütün bunların hamısı sahibkarın öhdəsinə düşür. Yalnız texnika ilə və avtomobil nəqliyyatı məsələsi qarşılıqlı razılaşma əsasında həll olunur. Məsələ ondadır ki, hadisə iş dövründə, işə gəlmə və ya işdən getmə dövründə baş veribsə, onda da dəymiş zərərin aradan qaldırılması sahibkarın və ya müəssisənin boynuna düşür”.

**❑ Ə.RAİS,**
**“Yeni Müsavat”**

# Azərbaycanda turizm zonalarına da qatarla getmək mümkün olacaq

## “Bu ilin sonuna kimi Bakı-Gəncə-Bakı marşrutu ilə sürət elektrik qatarlarının göndərilməsi nəzərdə tutulur”

**Bakının mərkəzindən və kəndlərindən keçən dəmir yolu xətlərinin ətrafında təmir-tikinti işləri aparılır. Dəmir yoluna yaxın məsafədə yerləşən evlər sökülür. Bu barədə dəmir yolu xətti boyunca yaşayan sakinlər tərəfindən “Yeni Müsavat”a çoxsaylı müraciətlər daxil olub. Onlar bilmək istəyirlər ki, görülən işlər nə zamana qədər davam edəcək və haralarda təmir-tikinti işləri aparılacaq.**



Öncə onu qeyd edək ki, hələ 2015-ci ildə “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov jurnalistlərə açıqlamasında bildirmişdi ki, Azərbaycanda dəmir yollarının ətrafında tikilən qanunsuz tikililərin məsələsi gündəmdədir.

C.Qurbanov bildirmişdi ki, bu məsələnin həll olunması üçün həmin qanunsuz tikililərin siyahısı hazırlanır. Elə həmin il o zaman “Azərbaycan Dəmir Yolları” QSC-nin mətbuat xidmətinin rəhbəri işləyən Nadir Əzməmmədov publika.az saytına açıqlamasında söyləmişdi ki, respublika ərazisində dəmir yolları təhkim zolağı ətrafında 2840 qeyri-qanuni tikili var. Bunun 2304-ü yaşayış, digərləri isə qeyri-yaşayışdır.

**N.Əzməmmədov bildirmişdi ki, söküntü işləri aparmaq onların səlahiyyətində deyil:**

“Dəmir yolu təhkim zolağı Nazirlər Kabinetinin qərarı əsasında formalaşır ki, qatar təhlükəsiz hərəkət etsin. Düz yerdə təhkim zolağı ilə tikintilər arasındakı məsafə 20-22 metr olmalıdır, bu zaman dönmə, qazma, tökmə yatağı və stansiyalar nəzərə alınmalıdır. Bu evlərin də əksəriyyəti düz yerdə tikilib və qaydaya əməl edilməyib”.

**Ötən ildən başlayaraq isə “Şanxay” deyilən ərazidə yerləşən evlərin söküntüsünə başlanıldı.** Həmin zaman “Yeni Müsavat”ın reportyor qrupu olaraq ərazidən reportaj hazırlamışdıq. Müşahidə etmişdik ki, ərazidə tikilən evlər dəmir yolu xətlərinin 2-3 metrliyində yerləşir. “Şanxay” ərazisində yaşayan sakinlər oradan köçürülən zaman mənzillərinin sənədi olmasa da, onlara kompensasiya ödənilmişdi.

**Hazırkı durumla bağlı məlumat almaq üçün Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti ilə əlaqə saxladıq.** Qurumun mətbuat xidmətindən bildirildi ki, prezident İlham Əliyev “Bakı şəhərətrafı dəmir yolu xəttinin layihə-smeta sənədlərinin hazırlanması, əsaslı təmiri və tikintisi ilə bağlı tədbirlər haqqında” sərəncam imzalayıb:

“Sərəncama əsasən, Abşeron yarımadasında mövcud dəmir yolu xətlərinin yenidən qurulması və dəmir yolu şəbəkəsinin təkmilləşdirilməsi, mövcud dəmir yolu xətlərinin reabilitasiyası və bərpası, elektrik təchizatı, rabitə və işarəvermə şəbəkəsinin əsaslı təmiri, yol kənarlarının mühafizə çəpəri ilə bağlanması, bəzi dəmir yolu keçidlərinin müxtəlif səviyyəli keçidlərlə əvəzlənməsi, stansiya binalarının yenidən qurulması və digər işlərin aparılması nəzərdə tutulur. Hazırda apaşdırma, layihələndirmə işləri aparılır.

Ümumilikdə 107 km yol yenidən qurulacaq. Genişləndirilən Bakı-Sumqayıt dairəvi dəmir yolunun bir hissəsi Dübəndiyə qədər uzadılacaq. Genişləndirmə işləri Bakıxanov, Zabrat-1, Zabrat-2, Pirşağı, Fatmayi, Novxanı və Sumqayıt istiqamətində olacaq. Daha sonra perspektiv planda Heydər Əliyev Beynəlxalq Aeroportuna, Şahdağ və Qəbələ turizm mərkəzlərinə dəmir yolu xətlərinin çəkilməsi nəzərdə tutulur və hazırda bu xətlərin də layihələndirilməsi işləri aparılır".

**Görülən işlər barəsində məlumat verilərkən qeyd olunub ki, Qəbələyə dəmir yolu Ləki stansiyasından dönməklə çəkiləcək:**

“Bakıdan Ləki stansiyasına qədər gediləcək, sonra Ləki stansiyasından sağ tərəfə çıxıb, Ağdaşın yanından keçməklə Qəbələnin hava limanına qədər çəkiləcək. Ləki stansiyasından Qəbələyə qədər olan ərazinin relyefi bir az mürəkkəbdir, dağlıq yerləri var. Hazırda layihələndirilmə işləri davam edir”.

Layihədən belə aydın olur ki, turizm zonalarına xüsusi əhəmiyyət verilib. Belə ki, verilən məlumata görə, Qusar rayonundakı Şahdağ xizək kurortuna da dəmir yolu nəzərdə tutulur:

“Burada da layihələndirmə işləri aparılır. Hər iki layihə üzrə dəmir yolunun nə vaxt çəkiləcəyi məlum olanda KİV vasitəsilə ictimaiyyətə məlumat veriləcək.

Bu ilin sonuna kimi Bakı-Gəncə-Bakı marşrutu ilə sürət elektrik qatarlarının göndərilməsi nəzərdə tutulur. Bunun üçün İsveçrənin “Stadler Rail Group” şirkətindən iki ədəd elektrik qatarının alınması planlaşdırılır".

Onu da qeyd edək ki, ölkə başçısının sərəncamı ilə Bakıətrafı dəmiryol xəttinin çəkilməsi, əsaslı təmiri ilə bağlı 100 milyon manat vəsait ayrılıb. Ekspertlər bildirirlər ki, layihə yekunlaşandan sonra Buzovnadan, Pirallahı qəsəbəsindən, Zirədən, Türkandan və sair qəsəbələrdən Bakıya gələnlər görsə ki, normal qatar fəaliyyət göstərir, sürətli qrafiklə işləyir, bundan istifadəyə üstünlük verərlər.

Nəticədə o istiqamətdən Bakıya gələn avtobusların, o cümlədən fərdi nəqliyyatın sayı azala bilər".

**❑ ƏLİ,**
**“Yeni Müsavat”**

Yeni MÜSAVAT
N 127 (7016) 12 iyun 2018

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun birləşmələrinin may ayında mövqelərini irəli çəkərək 11 min hektara yaxın ərazini, o cümlədən Şərur rayonunun 1992-ci ildən düşmən nəzarətində olan Günnüt kəndini nəzarət altına alması Ermənistanda şok effekti yaradıb. İşğalçı ölkə Azərbaycan ordusunun uğurlu hərbi əməliyyatını etiraf etməyin daxildə etirazların baş qaldırması baxımından təhlükəli olduğunu anlayaraq absurd iddia ilə çıxış edib.**





# Hakimiyyətinin ilk ayını məğlubiyyətlə başlayan Paşinyan danışıqlardan yayınır

## Azərbaycan və Ermənistan rəhbərliyi Rusiya paytaxtına gedir, lakin ikitərəfli görüş olmayacaq; **ekspert:** “Ordumuz Naxçıvandakı uğurunu Qarabağda da təkrarlaya bilər...”

Belə ki, Ermənistan Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Artsurun Ovanisyan Günnüt kəndinin sakinlərinin 26 il sonra öz kəndlərinə qayıdıb yaxınlarının məzarlarını ziyarət etməsinin “erməni komandanlığının icazəsi ilə baş verdiyini” iddia edib. Ovanisyan bildirib ki, iyunun 6-da və 7-də Azərbaycan tərəfi Ermənistan silahlı qüvvələrinin komandanlığına müraciət edərək Günnüt kəndinin sakinlərinin yaxınlarının məzarlarını ziyarət etməsinə “mane olmamağı” istəyib. Və guya erməni tərəfi Azərbaycan tərəfindən ilk dəfə belə müraciət edildiyini nəzərə alaraq humanitar normaları əsas tutaraq müraciətə müsbət cavab verib. Ovanisyana görə, Azərbaycan tərəfi daha sonra həmin kadrları Naxçıvanda 11 min hektar ərazinin azad edilməsi kimi təbliğat məqsədi ilə istifadə edib. Bu iddia ilə bağlı Azərbaycan Müdafiə Nazirliyi bildirib ki, Ermənistan Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəhbəri ilk dəfə deyil bu cür absurd bəyanatlarla çıxış edir. “Onun yaydığı məlumatın heç bir əsası yoxdur, uydurmadır və erməni ictimaiyyətini aldatmağa yönəlib. Biz Azərbaycan ictimaiyyətini düşmənin bu təxribatına əhəmiyyət verməməyə çağırırıq”.

Xatırladaq ki, ermənilərin özlərinin də etiraf etdiyi kimi Azərbaycan ordusu mövqelərini 4-5 kilometr irəli çəkərək strateji əhəmiyyətli “Qızılqaya” yüksəkliyi də daxil olmaqla 4 yüksəkliyi tutub. Nəticədə Günnüt kəndi atəş altından çıxarılıb. Habelə Ermənistanın Areni kəndi ordumuzun nəzarəti altında qalıb, o cümlədən Yerevan-Gorus-Laçın yoluna nəzarət etmək imkanı yaranıb (virtualaz.org).

Bunun ardınca Ermənistan ordusunun işğal olunmuş Azərbaycan ərazilərindəki bölmələrinin itkilər verməsi də düşməni çıxılmaz vəziyyətə salıb. Bir neçə gün əvvəl təmas xəttinin şimal hissəsində ordumuzun sərrast atəşi ilə ağır yaralanan erməni hərbçinin durumu ağır olduğundan o, İrəvana aparılıb. İki gün əvvəl isə Xocavənd istiqamətində atəşkəs rejiminin pozulmasına cavab olaraq əsgərlərimizin açdığı atəş nəticəsində müqavilə ilə xidmət keçən əsgər 1992-ci il təvəllüdlü Vaan Eloyan öldürülüb. Ermənistan XİN bəyanat yayaraq, baş verənlərin məsuliyyətini Azərbaycan tərəfinin üzərinə qoymağa cəhd edib. Ancaq əslində baş verənlərin məsuliyyətini ilk növbədə Ermənistan XİN-in yeni rəhbəri və müdafiə naziri daşıyır. Onlar təyinatdan az sonra özlərini göstərmək üçün Naxçıvanla sərhəd bölgəyə getmişdilər, hətta bəzi erməni ekspertləri yeni XİN başçısını əvvəlki nazirlərə nümunə olaraq göstərmişdi. Lakin erməni diplomat sülh danışıqlarının pozulmasına yönəlik addımı ilə gərginliyi tətiklədi və cavabını aldı.

**Düzdür, hazırda cəbhə xəttində müəyyən gərginliyin olması Nikol Paşinyan hökumətinə lazımdır.** Ermənistanın ardınca Dağlıq Qarabağda da etiraz aksiyalarının keçirilməsi Ermənistan hakimiyyətini narahat edir. Hadisələrin qarşısını almağın yolu erməniləri Azərbaycanla qorxutmaqdır. Lakin bu da var ki, Paşinyan mahiyyət etibarilə danışıqlara meylli şəxs təsiri bağışlamır. Onun səsləndirdiyi bir neçə Qarabağ bəyanatı olub ki, bu bəyanatlar hətta sabiq prezidentlər Levon Ter-Petrosyan və Robert Köçəryanın etirazına səbəb olub. N.Paşinyan Qarabağ ermənilərini danışıqlarda tərəf kimi oturtmaq üçün cəhdlər göstərir ki, bu da sadəcə, vaxtı uzatmağa xidmət edir.

Bu həftə ATƏT-in Minsk Qrupunun həmsədrlərinin İrəvana səfəri olacaq. Vasitəçilərin Ermənistanın yeni hadkimiyyətinin Qarabağla bağlı hansı mövqedə dayandıqlarını yəqin ki, tezliklə Bakıya çatdıracaqlar. Bundan sonra isə Azərbaycan prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan Moskvada futbol üzrə dünya çempionatının açılış mərasimində iştirak etmək üçün Moskvaya gedəcəklər və açılış mərasimində iştirak edəcəklər. Mərasim iyunun 14-də Moskvanın “Lujniki” stadionunda keçiriləcək. Virtualaz.org bildirir ki, faktiki olaraq, bu, Ermənistan və Azərbaycan liderlərinin görüşdükləri ilk tədbir olacaq. Bundan əvvəl Rusiya liderinin mətbuat katibi Dmitri Peskov demişdi ki, Vladimir Putin futbol üzrə dünya çempionatını izləmək üçün Rusiyaya gələcək Ermənistanın baş naziri Nikol Paşinyanla görüşəcək. Tədbir çərçivəsində Putinin vasitəçiliyi ilə İlham Əliyevlə Nikol Paşinyan arasında görüşün baş tuta biləcəyi ehtimalı da səslənir. Ancaq gedişat göstərir ki, Ermənistan Qarabağ məsələsinin sülh yolu ilə ədalətli həllinə maraqlı deyil. Hər halda, bunu Paşinyan iqtidarının təbliğatçılarının mövqeyi də təsdiqləyir.

Paralel olaraq İrəvan Xankəndi ilə hansısa anlaşmalara getməklə Bakını fakt qarşısında qoymağa çalışır ki, bu da danışıqların pozulmasına yönəlik təxribatçı cəhddir. “Ermənistan dərhal Dağlıq Qarabağla hərbi ittifaq bağlamalıdır”. Moderator.az xəbər verir ki, bunu “Novosti-Armeniya” nəşrinə müsahibəsində “Realist” xəbər agentliyinin baş redaktoru Sarkis Saturyan bildirib. “Bu hərbi ittifaq bağlanarsa, yeni Paşinyan hökuməti Xankəndi ilə hərbi sazişin imzalanmasını vəd etmiş, ancaq bunu yerinə yetirməmiş Serj Sərkisyanın səhvini düzəltmiş olar. İkincisi, iki erməni dövləti arasında hərbi saziş Dağlıq Qarabağa qarşı növbəti təcavüzə hazırlaşan Bakı və Ankaranı ayıldar” - deyə jurnalist iddia edib. Saturyan hesab edir ki, İrəvan və Xankəndi arasında əlaqələrin rəsmiləşdirilməsi eyni zamanda Xəzər dənizi hövzəsində ABŞ və Böyük Britaniyanın neft və qaz maraqlarına uyğun olaraq Qarabağda sabitliyin pozulmasına çalışan beynəlxalq qüvvələrə bir siqnal olacaq. Onun fikrincə, Qarabağdakı təmas xəttində ən təhlükəli dövr iyunun 12-dən iyunun 24-dək olacaq. Erməni jurnalist bunu həmin vaxt Türkiyədə seçkilər və TANAP boru qaz kəmərinin açılışı ilə əlaqələndirir.

Əslində Ermənistan ordusunun həm Naxçıvan, həm də Qarabağ istiqamətindən təxribatlar törətməsinin məqsədli olduğu əvvəllər də vurğulanmışdı. Ermənistan adətən, Azərbaycanın iştirakçısı olduğu nəhəng layihələrin qarısını almaqdan ötrü ağalarından təlimatlar alır.

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** “Yeni Müsavat”a bildirdi ki, ermənilər Naxçıvanda strateji yüksəkliyi itirdiklərini etiraf edirlər: “Nikol Paşinyan təpəni geri almaq məqsədilə ordusuna hücum əmri verə bilmir. Çünki o halda bu, 2016-cı ilin aprel hadisələrinin təkrarına səbəb olacaq. Paşinyan müharibəyə hazır deyil. Ermənistanın baş naziri bilir ki, əgər Naxçıvan istiqamətində əks-hücum əmri versə, bu, onun üçün sonun başlanğıcı olacaq. Azərbaycan ordusunun Naxçıvanda azad etdiyi yüksəklik faktoru Paşinyanın əleyhinə işləyir. Çünki bu, ciddi başlanğıca səbəb ola bilər. Onsuz da iki ölkə arasında sərhədlərin dəqiq xətti müəyyən deyil. Azərbaycan ordusu Naxçıvandakı uğurunu Dağlıq Qarabağda da təkrarlaya bilər. Bu, genişmiqyaslı müharibə deyil, strateji mövqelərin ələ keçirilməsi məqsədilə mövqe döyüşləridir”.

**Politoloq hesab edir ki, son əməliyyat Azərbaycan ordusu üçün psixoloji üstünlükdür:** “Azərbaycan Ermənistanda və Dağlıq Qarabağda yaranan xaosdan öz məqsədləri üçün istifadə etməyə başlayıb. Ermənistan hakimiyyəti itkilərini və məğlubiyyətlərini şərh etmir. Məsələn, 2016-cı ildə Lələ təpə üzərindəki nəzarəti itirdilər, bu günə qədər nə bu təpədən, nə də məskunlaşdırılan Cocuq Mərcanlıdan danışırlar, sanki illər boyu Lələ təpə onların işğalında olmayıb. İndi də Naxçıvan istiqamətindən əraziləri əldən verdilər. Doğrudur, indi özlərindən nağıl quraşdırırlar ki, guya ”razılıq" əsasında geri çəkiliblər. Lakin buna kimsə inanmaz. Heç öz əhalisi də inanmır. Bu, o deməkdir ki, bir gün Dağlıq Qarabağ ətrafındakı rayonları da əldən versələr, üstəgəl, Şuşa, Laçın və Kəlbəcər üzərindəki nəzarəti itirsələr, üstündən ya sükutla keçməyə çalışacaqlar, ya da deyəcəklər, buralar heç əvvəldən də onların olmayıb. Bizə də elə bu lazımdır. İllər öncə adını qoyduğum yorucu müharibə davam edir".

**E.Şahinoğlu Moskvada Əliyev-Paşinyan görüşünün təşkil olunacağına inanmır**: “Dəvət Dünya Çempionatının açılışı ilə bağlıdır. Bu mənada inanmıram ki, Moskvada bu fürsətdən istifadə olunsun və geniş görüş təklif edilsin. Çünki Rusiya prezidentinin başı digər məsələlərə qarışıb. Amma İlham Əliyevlə Paşinyan arasında əl tutması, hətta ayaqüstü qısa söhbət ola bilər. Bununla yanaşı, geniş müzakirələrin aparılacağını düşünmürəm, çünki hələ tərəflər buna hazır deyillər”.

Bu arada Ermənistan hökumətinin “Moskvada Əliyevlə Paşinyanın görüşü nəzərdə tutulmur” açıqlaması da İrəvanın gerçək mövqeyini ifadə edir. Azərbaycan prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında Moskvada görüş planlaşdırılmır. Bu barədə “İntefax” agentliyinə **Ermənistan baş nazirinin mətbuat katibi Arman Yeqoyan** bildirib. “Nikol Paşinyan və İlham Əliyevin Moskvada görüşünə dair hazırda heç bir razılaşma yoxdur”, - deyə o vurğulayıb.

Maraqlı vəziyyət yaranıb, son itkilərədək Qarabağ danışıqlarına hazır olduğunu deyən Paşinyan indi şansı dəyərləndirməkdən, prezident Aram Sərkisyandan önə çıxıb, Azərbaycan prezidenti ilə görüşməkdən çəkinir. Bu, onun Qarabağ danışıqlarında təşəbbüsü ələ almaq üçün yaxşı fürsət ola bilərdi. İmtinanın səbəbi sözsüz ki, Naxçıvan və Qarabağ istiqamətindəki itkilərdir. Ermənistanın baş naziri hökumətə rəhbərlik etdiyi bir ay ərzində artıq məğlubiyyəti dadıb və danışıqlarda üstün mövqedə iştirak etmək şansını itirib. Çox güman ki, bu səbəbdən Paşinyan özünə gəlmək üçün “taym-aut” götürməyə qərar verib...

YENİ MÜSAVAT
N 127 (7016) 12 iyun 2018

# İtaliyada TAP-a qarşı Rusiya əngəli

## Elnur Soltanov: "Ortada çoxaktyorlu oyun var..."

**Azərbaycan qazını Avropaya nəql edəcək Transadriatik Qaz Kəməri (TAP) layihəsinə yenidən baxılacağına dair İtaliyanın yeni hökumətinin bəyanatı ciddi müzakirə mövzusu olaraq qalmaqdadır.**

Xatırladaq ki, İtaliyanın rusiyameylli "5 Ulduz" hərəkatı və "Şimal liqası" partiyaları tərəfindən formalaşdırılmış yeni koalision hökumətinin ətraf mühit naziri Serjio Kosta TAP layihəsini "tamamilə gərəksiz" layihə adlandırıb, bir sıra iri layihələrlə birlikdə ona da yenidən baxılacağını açıqlayıb.

Layihəni həyata keçirən konsorsium da İtaliyadan səslənən fikirlərə ilkin reaksiyasını açıqlayıb. TAP-ın ictimaiyyətlə əlaqələr bölməsinin rəhbəri Liza Givert "Trend" agentliyinə açıqlamasında konsorsiumun İtaliyanın yeni hökuməti ilə "sıx əməkdaşlıq edəcəyini" deyib: "TAP İtaliyanın yeni hökuməti və onun müvafiq nazirlikləri ilə sıx əməkdaşlıq edərək bu layihənin İtaliya vətəndaşları üçün faydaları, o cümlədən məşğulluq, gəlirlər, təbii qazın qiymətinin aşağı salınması baxımından üstünlükləri barədə çatdıracaq".

**TAP konsorsiumunun rəsmisi qaz kəmərinin İtaliya üçün bir sıra üstünlüklərə malik olduğunu deyir. Liza Givert bildirir ki, TAP İtaliyada dekarbonlaşdırma prosesinin fasiləsiz həyata keçirilməsi üçün mühüm olan təbii qaz nəql edəcək, enerji efektivliyi və bərpa olunan enerji mənbələri baxımından əhəmiyyətli olacaq. Habelə İtaliyanın qaz təchizatının şaxələndirilməsinə imkan yaradacaq:** "Mövcud qaz təchizatı marşutlarına (Rusiya, Əlcəzair, Liviya, Niderland və Norveç) əlavə olaraq TAP energetika təhlükəsizliyini daha da möhkəmləndirəcək. Bu da təchizat mənbələri arasında rəqabəti gücləndirəcək və logistika xərclərini azaldacaq".



Onu da qeyd edək ki, bir çox mənbələr İtaliyada TAP-a qarşı bitməyən etirazların arxasında Rüsiyanın dayandığını deyirlər. Azərbaycandakı sabiq ABŞ səfiri Metyu Brayza bir müddət əvvəl problemin kökündə "Qazprom" dayandığını bəyan etmişdi. İtaliyada hökumət quran qüvvələr də Rusiyaya isti münasibətləri ilə tanınırlar.

**ADA Universitetinin Xəzər Enerji və Ətraf Mühit Mərkəzinin direktoru Elnur Soltanov**un "Yeni Müsavat"a dediyinə görə, TAP-la bağlı problemlər kimlərinsə Azərbaycanı özünə rəqib görməsindən qaynaqlanır: "İtaliyada koalisyon hökumət quran qüvvələr daxilində müəyyən ölkələrə bağlı olanlar da var. Ümumiyyətlə, TAP-ın İtaliyaya girişi və çıxışındakı ərazilər üzrə lokal etirazlar əvvəlcədən də vardı. Bu etirazların arxasında həqiqi lokal səbəblər ola bilər. Amma belə problemlərin həlli üçün imkanlar hər zaman var. Bilirsiniz ki, Baltik dənizinin dibiylə yüzlərlə, minlərlə kilometr uzunluqda kəmər çəkən, Qara dənizin " dibindən keçən kəmər çəkən ölkələr var. Bu zaman nədənsə heç bir ekoloji problem meydana çıxmır. Amma 200 zeytun ağacına görə problemlər ortaya çıxır, yaxud TransXəzər boru xəttinin çəkilməsi məsələsi mümkün sayılmır. Burada siyasi təzyiq məsələsidir. Bəzi ölkələrin Avropa ölkələri üzərindəki təsirinin, bəzi şirkətlərin buradakı təsirinin nəticəsini görürük. Elə Avropa İttifaqının diversifikasiya çalışmalarının arxasında da bu qorxu durur ki, bir dövlət və ya bir şirkətdən asılı qalmaq hansı fəsadlar verə bilir. İtaliyada gedən proseslər Avropa İttifaqının diversifikasiya istəyinin nə qədər yerində olduğunu, Azərbaycanın bu prosesdə oynadığı rolun əhəmiyyətini bir daha göstərmiş olur. Yəni çox xırda bir məsələyə görə, hələ bir neçə ildən sonra axmağa başlayacaq çox az miqdarda qaza görə yaşanan problemlər buna işarədir".

**Mərkəz rəhbərinin fikrincə, ortada strateji mənada bir anlaşma var:** "İtaliya Avropa İttifaqının önəmli dövlətlərindən biridir. Amma bu məsələdə çox müxtəlif siyasi-iqtisadi maraqlar rol oynayır. Mənə elə gəlir ki, ən pis halda boru xəttinin bir qədər gecikməsi baş verə bilər. Hətta mümkündür ki, bu da olmasın, layihə vaxtında başa çatsın. Prinsipcə, Azərbaycan bu məsələni etirazların arxasında duran dövlət və şirkətlərlə həll etmiş görünür. Sadəcə olaraq, bu şəkildə məsələlər ortaya atılmaqla, görünür ki, Azərbaycandan başqa mövzularda müəyyən güzəştlər əldə etməyə çalışırlar. Diplomatiya çoxkartlı bir prosesdir. Burada onlarca hadisə eyni zamanda dəyərləndirmə içərisindədir. Bir tərəfdən təzyiqi artırarlar ki, başqa bir məsələdə güzəşt əldə edə bilsinlər. Bu məsələ iqtisadi də ola bilər, siyasi də, təhlükəsizliklə bağlı məsələ də. Bu baxımdan, proses davam edir. İndiyədək çox manelər aşılıb, bu da onlardan biri".

**Ekspert hesab edir ki, Cənub Qaz Dəhlizi ilə bağlı bir çox problemlər bilavasitə Rusiyanın mövqeyindən qaynaqlanır:** "Lakin belə başa düşürəm ki, Kremldə bu məsələyə yaşıl işıq artıq yanır. Sadəcə olaraq, bu çətinliklər digər mövzularda Azərbaycan tərəfindən, bəlkə də digər konsorsium üzvlərindən nələrsə əldə etməyə yönəlib. Ola da bilsin ki, problemlər birbaşa Azərbaycanın özüylə deyil, digər iştirakçı ölkələr, şirkətlərlə bağlıdır. Çoxaktyorlu oyundur. Bp var, Yunanıstan, Türkiyə var. Hətta Azərbaycan qazının Türkiyəyə daxil olması belə bu ölkədəki Rusiya qazına rəqabət yaranması deməkdir. Hazırda söhbət qazın Avropaya çıxıb-çıxmamağından deyil, hansı şərtlərlə çıxmasından gedir. Bu şərtlər çox mürəkkəb situasiyada meydana çıxır və hərəsi bir məqsədə xidmət edir. Amma düşünürəm ki, onlar Azərbaycan qazının Avropa bazarına çıxışını ləngidə bilməyəcəklər".

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

# Şimali Koreya qapalı rejimlərin taleyini yaşaya bilərmi?

**ABŞ və Şimali Koreya arasındakı buzlar sürətlə əriməyə başlayıb. Bu gün Ağ Evin rəhbəri Donald Trampla Şimali Koreya lideri Kim Çen İn Sinqapurda görüşəcəklər və bu da ölkələr arasındakı gərginliyin aradan qalxmasına ciddi təsir edə bilər.**

Ekspertlər dünyanın qapalı ölkələrindən sayılan Şimali Koreyanın ABŞ-la münasibətlərinin düzələcəyi təqdirdə bu dövlətin dünyaya açılım edəcəyi, bunun da müsbət istiqamətlərdə ciddi təsirlərinin olacağını bildirirlər. Qapalı ölkələrdən biri ətrafında gedən bu proseslər bəzi məsələləri də gündəmə gətirib. Belə ki, indiyə qədər belə dövlətlərdən sayılan İraqda, 2011-ci ildə "Ərəb baharı" adı altında dövlət çevrilişləri olan bir sıra ölkələr olub ki, oradakı bu dəyişikliklərin müsbətdən çox mənfi nəticələri olub. Hələ də o dövlətlər özlərinə gələ bilmir.





**Elxan Şahinoğlu:** "Şimali Koreya diktatoru digər diktatorların faciəsindən dərs götürüb"
**Əhəd Məmmədli:** "Ərəb ölkələri ilə müqayisədə Koreya ilə ABŞ müharibə etmir"

Qapalı imperiyalardan sayılan SSRİ-ni də bu yerdə nümunə çəkmək olar. Düzdür, 1991-ci ildə Sovetlər İttifaqı dağıldı, 14 respublika müstəqillik əldə etdi. Lakin bu respublikaların sonradan hansı çətinliklər yaşadığı hər kəsə məlumdur. Bu nümunələrdən çıxış edərək, Şimali Koreyanın qapalı sistemdən çıxsa belə, gələcəkdə hansı problemləri yaşaya biləcəyi yönündə yetkin fikirlər söyləmək mümkün deyil.

**Qərb Universitetinin Tətbiqi Politologiya Mərkəzinin rəhbəri Elxan Şahinoğlu** hesab edir ki, Şimali Koreya diktatoru indiyə qədər baş verən bəzi hadisələrdən dərs götürüb: "Şimali Koreya lideri tarixi addım atdı. İndiyə qədər onunla ABŞ prezidentləri arasında görüş olmayıb. Bu mümkün də deyildi. Çünki 1950-ci illərin Koreya müharibəsindən sonra Şimali Koreya dünyaya qapanmış həyat sürürdü. Diktatura rejimi bərqərar olmuşdu. Əgər Sinqapurdakı görüşdən sonra Şimali Koreya nüvə sınaqlarından tamamən imtina edərsə, bu, tarixi nəticə olacaq. İkinci mərhələdə Şimali Koreya ümumiyyətlə, nüvə silahından imtina etməlidir. Bu da baş verərsə, ikinci müsbət nəticə hasil ediləcək. Hər iki nəticə ABŞ prezidenti Donald Trampın xeyrinə yazılacaq. Şimali Koreyanın bu şəkildə ram edilməsi Trampın xarici siyasətində ilk böyük uğuru ola bilər. Bundan sonra iki ölkənin liderləri bir-birini ölkələrinə də dəvət edə bilərlər. Şimali Koreyanın diktator lideri nədən belə bir güzəştə gedir? Görünür, o anladı ki, sanksiyalar onun ölkəsini uçuruma yuvarlandırır. Şimali Koreyada yarıac insanların sayı az deyil, tibbi xidmət yox dərəcəsindədir. Bunun əvəzinə bu ölkənin hakimiyyəti əlindəki maliyyə vəsaitini nüvə silahına xərcləyirdi. Ona görə də, görünür diktator düşündü ki, nüvə silahından imtina etməklə maliyyəni insanların rifah ahlına isti - qamətləndirmək olar. Ancaq gərək bundan sonra Amerika da addım ata, bu ölkəyə qarşı sanksiyaları yumşalda. Belə olarsa, Şimali Koreya daha çox Cənubi Koreyaya yaxınlaşmış olacaq. Şimali Koreyanın diktatoru o biri diktatorların faciəsindən də dərs götürdü. Səddam Hüseynin və Müəmmar Qəddafinin sonu dəhşətli oldu. Əlbəttə, Şimali Koreyada daxili inqilab gözlənilmirdi. Ancaq Amerika Şimali Koreyanı bombalasaydı, bu ölkədə dəhşətli bir vəziyyət yaranacaqdı. Buna görə də Şimali Koreyanın gənc diktatoru uçurumun bir addımlığından geri addım atdı. Doğru qərar verdi. Bu bölgəni də rahatlatdı".

**Politoloq Əhəd Məmmədli** bildirdi ki, bütün dünya Amerika və Şimali Koreya liderləri arasında olacaq görüşün müsbət nəticələrini gözləyir: "Yaddan çıxarmayaq ki, bu dəfə avtoritar deyil, demokratik rejimin lideri odioz fiqurdur və hamı onun danışıqları pozacağından ehtiyatlanır. Artıq Tramp bu haqda eyham da vurub, danışıqlar ciddi getməsə, o danışıqlar masasını tərk edəcək. Lakin fikirləşirəm ki, əgər Tramp danışıqlara gəlirsə, deməli Şimali Koreya ilə münasibətlər müsbətə doğru gedir. Kim Çen İn Trampla müqayisədə daha adekvat, istəkli görünür. ABŞ bir nəfər tərəfindən idarə olunmayan dövlət olduğundan bu cür vacib danışıqlara başlayırsa, deməli sona qədər davam etmək israrındadır. Yəni Trampın qeyri-müəyyən xarakteri bu dəfə işə keçməyəcək. Çünki Trampın arxasında duran güc də münasibətləri Şimali Koreya ilə müsbətə doğru qurmaqda maraqlıdır. Ərəb ölkələri ilə müqayisədə Koreya ilə ABŞ müharibə etmir və ya bu ölkədə inqilab baş vermir. Amerika bərabər hüquqlu tərəfdaş kimi bəlkə də dünyanın ən diktatura rejimi ilə bir masa arxasında oturur. Çünki Şimali Koreya nüvə silahı olan arxasında Çin kimi dostu, Rusiya kimi tərəfdaşı olan ölkədir. Ərəb ölkələri kimi zəif, sahibsiz deyil. Koreya ilə müharibə etmək hətta ABŞ üçün belə çətindir. ABŞ ancaq müsəlman ölkələri ilə müharibə edir. Qatı kommunist ölkəsi Koreya ilə ABŞ-ın müharibə etmək fikri yoxdur. Amerika hər kəslə dil tapar, yalnız İslam dünyasından başqa. Çünki Amerika dövlətini quranlar və idarə edənlər İslam ideologiyasına bir nömrəli düşmən kimi baxırlar".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 127 (7016) 12 iyun 2018




# “Made in Azerbaijan” brendinin böyük uğuru üçün nə etməli...

## Vüsalə Əhmədova: “Xarici bazarlarda daha çox təmsil olunmaq üçün beynəlxalq qida təhlükəsizliyi standartlarının tətbiqi mütləqdir”

**2014-cü ildə dünyada yaşanan neft böhranı nəticəsində Azərbaycan iqtisadiyyatının da çətinliklərlə üzləşməsi qeyri-neft sektorunun inkişafını, həmçinin ölkənin ərzaq təhlükəsizliyinin yerli istehsal hesabına təmin edilməsini qaçılmaz etdi. Həmçinin azalan neft gəlirləri, qeyri-neft sektorunun ixracının artırılmasını gündəmə gətirdi.**

Qeyri-neft sektoru dedikdə isə ilk növbədə ərzaq və kənd təsərrüfatı məhsulları ağıla gəlir. Ancaq təbii ki, yerli istehsalın dünya bazarına çıxması beynəlxalq qida təhlükəsizliyi standartlarına cavab verməsi çox önəmlidir. Bu həm də əhalinin təhlükəsiz ərzaq məhsulları ilə təminatı deməkdir ki, son zaman hökumətin bu yöndə atdığı addımlar da mövzunun prioritet olmasından xəbər verir.

Bəs görəsən, dünyada qida məhsulları istehsalı ilə bağlı hansı standartlar var ki, ölkəmizdə də ərzaq istehsalçılarının buna əməl etməsi mütləqdir?

Mövzu ilə bağlı “Yeni Müsavat”a danışan iqtisadçı-ekspert Vüsalə Əhmədova bildirdi ki, istənilən dövlətin qarşısında duran çoxsaylı vəzifələr arasında ölkə əhalisinin təhlükəsiz ərzaq məhsulları ilə etibarlı təminatı məsələsi xüsusi yer tutur: “Bu məsələ müasir dövr üçün öz aktuallığını daha da artırır və ciddiləşir. Qida təhlükəsizliyi hər hansı bir qidanın insan, heyvan və ətraf mühit sağlamlığı üçün təhlükə mənbəyi olmaq ehtimalından azad olması deməkdir. Məhsul istehsalının istənilən mərhələsində onun təhlükəli faktorlarla təmasda olması və ya yoluxması, bu faktorların məhsulun tərkibinə düşməsi ehtimalı istisna deyildir. Hazırda dünyada qida məhsulları istehsalı zəncirinin bütün mərhələlərində məhsulun zərərsizliyini şərtləndirən çoxsaylı qida təhlükəsizliyinin idarəedilməsi mexanizmləri yaradılıb. Dünyada ən çox istifadə olunan beynəlxalq qida təhlükəsizliyi və keyfiyyət standartları mövcuddur ki, hər bir istehsal müəssisəsinin bunları diqqətə alması və tətbiq etməsi zəruridir”.

**Beynəlxalq məhsul təhlükəsizliyi standartlarından danışan iqtisadçı onları belə xarakterizə etdi:** “ ”HACCP (Hazard Analysis and Critical Control Point)" beynəlxalq standartı məhsul təhlükəsizliyinə təsir edən amillərin əvvəlcədən təyin olunması və nəzarət altına alınmasını təmin edən sistematik bir yanaşmadır. HACCP sisteminin ən əsas üstünlüyü onun hazır məhsuldakı deyil, istehsal mərhələsində yaranan səhvləri müəyyən etməsi və məhsulun təhlükəsiz qaydada hazırlanmasını təmin etməsidir. HACCP ilk olaraq 1960-cı ildə ABŞ-da amerikan ordusu və NASA üçün “sıfır səhv” məhsul istehsalı məqsədinə istiqamətli olaraq inkişaf etdirilib. 1970-ci illərdən başlayaraq isə ABŞ Qida və Dərman Dairəsi tərəfindən istifadə edilməyə başlandı. 1993-cü ildən etibarən isə Avropa Birliyi içindəki bütün ərzaq məhsullarına HACCP tətbiqi zəruri hala gəldi.

“ISO 22000" beynəlxalq standartı qida təhlükəsizliyi idarəetmə sistemi tələblərini müəyyənləşdirir. Standartın tətbiqi müəssisələrə ərzaq məhsullarının istehsalında yaranmış təhlükələri idarə etməyə və təhlükəsiz məhsulların istehsalını təmin etməyə imkan verir. Standart, qida istehsal zəncirinin istənilən mərhələsi və bütün müəssisələr üçün nəzərdə tutulur. ISO Standartlaşdırma Təşkilatı tərəfindən daha sonralar ərzaq təhlükəsizliyi baxımından standartın bir sıra versiyaları işlənib hazırlanmışdı”.

**V.Əhmədovanın sözlərinə görə, “BRC Global Standard for Food Safety Issue 6" beynəlxalq standartı isə Britaniya pərakəndə ticarət konsorsiumu tərəfindən qida istehsalçıları üçün hazırlanmış olmaqla, 2012-ci ilin yanvar ayından qüvvəyə minib. Standart, formulaların dəqiqliyi və tələblərin yüksək spesifikasiya dərəcəsi ilə xarakterizə olunur. 2015-ci ildən etibarən isə standartın ”BRC Global Standard for Food Safety Issue 7 ttp://www.brcevents.com/Home/Future-Events/BRCİssue7Roadshow.aspx" versiyası işlənib hazırlanıb.**

“IFS Food” standartı qida məhsullarının istehsalı, emalı və ya onların qablaşdırılması ilə məşğul olan müəssisələr üçün nəzərdə tutulur. Standart yalnız məhsulun emalı zamanı və ya ilkin qablaşdırılması sırasında məhsulun çirklənmə riskini aradan qaldırmaq üçün nəzərdə tutulur. İdxal, daşınma, saxlama və paylama sahələri üzrə fəaliyyət göstərən müəssisələrə şamil edilmir. “IFS Food” standartı Almaniya Federasiyasının pərakəndə ticarət şirkətləri tərəfindən, Fransa pərakəndə ticarət və paylama şirkətləri ilə birgə işlənib hazırlanıb. Standart o cümlədən, ətraf mühitin mühafizəsi tələblərini də özündə ehtiva edir.

“FSSC 22000" standartı bir sıra kompleks standartları əhatə edən qida təhlükəsizliyi idarəetmə sistemini sertifikatlaşdırma və audit sxemidir. Bu digər standartların müsbət və mənfi tərəfləri nəzərə alınmaqla yaradılan nisbətən yeni bir sertifikatlaşdırma sistemidir. Standart, heyvandarlıq məhsulları, tez xarab olan tərəvəz məhsulları, istifadə müddəti uzun olan qida məhsulları, bir sıra qida əlavələri, qida qablaşmaları və heyvan yemləri istehsal və ya emal edən təşkilatlar üçün hazırlanıb.

“Global Aquaculture Alliance Seafood” standartının üstünlüyü qida sənayesinin bütün xüsusiyyətlərini özündə ehtiva etməsidir. Su və dəniz məhsulları istehsalçıları üçün standartlar işləyib hazırlayan aparıcı təşkilat olan “The Global Aquaculture Alliance” tərəfindən hazırlanıb. Standart, inkubatorlardan başlayaraq, yem istehsal və emal müəssisələrinədək bütün tip obyektləri əhatə edir.

“GMP+” standartı yalnız yem məhsulları və yem əlavələri istehsal edən müəssisələrə şamil edilir və məhsul istehlakçılara təqdim edilənədək istehsalın bütün mərhələlərini əhatə edir.

“Global GAP” beynəlxalq standartı kənd təsərrüfatı məhsulları istehsalçıları üçün hazırlanıb. “Global GAP” standartları seriyası bitkiçilik məhsulları, su məhsulları, ev heyvandarlığı, yem istehsalı və tədarük zəncirini əhatə edir. Standart məcburi, tövsiyə edilən və ikinci dərəcəli tələblərə bölünür".

İqtisadçı onu da vurğuladı ki, dünyada ət məhsulları istehsalı üçün də xüsusi standart mövcuddur: “Global Red Meat” beynəlxalq standartı qırmızı ət və ət məhsullarının kəsimi, sümükdən ayrılması və satış prosesləri üçün xüsusi olaraq işlənib hazırlanıb. Standartın tələbləri iribuynuzlu malların daşınması, kəsimədək saxlanması, kəsimi, sümükdən ayrılması və emalı daxil olmaqla bütün istehsal zəncirini əhatə edir. “SQF CODE” standartı isə 1994-cü ildə Avstraliyada hazırlanıb. Standartın əsas üstünlüyü onun yalnız qida təhlükəsizliyinə deyil, eyni zamanda məhsulun keyfiyyətinə də diqqəti yönəltməsidir".

**V.Əhmədova onu da qeyd etdi ki, Azərbaycan istehsalı olan məhsullar xaricdə qida təhlükəsizliyi standartları baxımından çox zaman əngəllərlə üzləşir:** “Ölkəmizdə 2017-ci ildə 2016-cı il ilə müqayisədə qeyri-neft sektoru üzrə ixracın 23%-dən çox artdığı deyilir. Qeyri-neft məhsullarının ixrac edildiyi ölkələrin siyahısında Rusiya liderliyini qorumaqdadır, sonrakı yerləri Ukrayna, Türkiyə, Gürcüstan, Türkmənistan bölüşürlər. İxrac edilən ərzaq məhsulları əsasən pomidor, qabığı təmizlənmiş meşə fındığı, xurma, alma, xiyar və kartofdur. Çox cüzi nar şirəsi, tomat pastası və şərab yer alır. Göründüyü kimi, ölkəmizin qeyri-neft sektorunun ixrac lokomotivi hələ də yaş meyvə və tərəvəzlərdir. Bu sahə üzrə ən çox ixrac həyata keçirdiyimiz Rusiya ilə qida təhlükəsizliyi baxımından bir sıra əngəllərlə üzləşirik. Xatırladım ki, keçən il Rusiyanın ”Baytarlıq və Fitosanitar Nəzarət üzrə Federal Xidməti" Azərbaycandan 18 ton pomidorun Rusiyaya idxalının qarşısını almışdı. Azərbaycandan idxal olunan alma və xurmada da zərərli faktorlar aşkarlanmışdı. Eynilə, Avropa ölkələri də (İspaniya və s.) Azərbaycandan meşə giləmeyvəsi və fındıq idxalına qadağa qoymuşdular. Bütün bu kimi halların yaşanmaması, “Made in Azerbaijan” adı altında xarici bazarlarda daha çox təmsil olunmaq üçün ilk olaraq beynəlxalq qida təhlükəsizlik standartlarının tətbiqi mütləqdir".

İqtisadçının fikrincə, ölkəmizdən ixrac olunan ərzaq malları arasında əlavə dəyəri yüksək məhsulların azlıq təşkil etməsi isə digər bir problemdir: “Ölkənin ixrac potensialının yüksəldilməsi baxımından konservləşdirilmiş məhsullar, şərab, tomat, qənnadı məhsulları, meyvə qurusu, cemlər, mürəbbələr və s. kimi əlavə dəyəri yüksək məhsulların ixracı vacibdir. İnnovasiya, dizayn, markalaşma və texnologiyaya diqqət yönəldilməlidir. Bundan əlavə kiçik və orta sahibkarlara maliyyə dəstəyi verilməli, siyasi və ticari risklərə qarşı sığorta təmin olunmalıdır. Valyuta məzənnələrindən yaranan riskləri minimuma endirmək üçün yeni bir mexanizm qurulmalıdır. Daha əvvəllər də qeyd etdiyim kimi, ölkəmizdə ”Eximbank"ın (Export Import Bank) yaradılması məqsədə uyğun olardı. Bu bank idxal və ixrac həyata keçirəcək olan kiçik və orta sahibkarlara dəstək verə bilər. “Eximbank” fəaliyyətini əsasən iki istiqamət üzrə həyata keçirir: kredit vermə və risklərdən sığortalama. “Eximbank” tərəfindən verilən kreditlərin faizləri əsasən ticari bankların kredit faizlərindən aşağı olur və daha uyğun şərtlər təklif olunur. İstehsalçılara, turistik şirkətlərə və beynəlxalq yük daşımaları həyata keçirən şirkətlərə sərfəli kreditlər təmin edilə bilər. Risklərdən qoruma fəaliyyətinə gəlincə isə “Eximbank”, ticari banklar tərəfindən verilən ixrac kreditləri üçün geri ödənmə təminatı verməkdədir. Beləliklə, müddətli olaraq həyata keçirilən ixrac əməliyyatları zamanı yaranan xarici alacaqlar, idxal zamanı isə xarici borclar sığortalanmış olur".

❑ **Nərgiz LİFTİYEVA,
“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 127 (7016) 12 iyun 2018

**Rəcəb Tayyib Ərdoğan ilk dəfə hakimiyyətə gələndə Türkiyədə cəmi 5 halal hotel varmış. İndi isə belə hotellərin sayı ilbəil artır. Hazırda Azərbaycanda isə bu tip hotellər fəaliyyət göstərmir.**

# Azərbaycanda halal hotellərə ehtiyac var- ekspertlər danışır

## Azərbaycanlılar halal hotellər üçün əsasən hansı ölkələrə gedir?

**Azərbaycan Turizm Assosiasiyası sədrinin müşaviri Müzəffər Ağakərimov**un sözlərinə görə, Azərbaycanda da halal hotellər yaradılacaq: “Halal standartlar o vaxtkı Mədəniyyət və Turizm Nazirliyi tərəfindən işlənib hazırlanıb. Azərbaycanda halal hotellərin fəaliyyət göstərməsini istəyirlər. Halal hotellər məcburi deyil. Hər bir sahibkar hotelini halal kimi də istifadə edə bilər, etməyə də. Hazırda onun nə vaxt ərsəyə gələcəyi isə bilinmir. Mən də halal hotellərin yaradılmasının ekspertlərindən biri olmuşam”.



### Halal hotel nədir?

İslam dininə riayət edən hotellərdir ki, orada ayrıca namaz otağı olur. Qadınlarla kişilər üçün hovuzlar ayrı olur. Dini ayinlərə riayət olunur. Orada verilən ərzaqlar hamısı halal olur. Spirtli içkilər satılmır, donuz ətindən istifadə edilmir, heyvanlar halal üsulla kəsilir və s.

**M.Ağakərimov bildirir ki, halal hotellər Türkiyədə, İsraildə və bir neçə müsəlman ölkəsində var:** “Azərbaycanda da halal hotellərin yaradılması üçün təşəbbüs var. Ərəb ölkələri, Fars körfəzindən gələn turistlər üçün halal hotellərə tələbat var. Gələcəkdə tələbat artdıqca bu növ hotellər tez zamanda fəaliyyətə başlayacaq. Bir şeyi unutmayaq ki, marketinqin qanunu təklif və tələbat bir yerdə olmalıdır. Tələbat olarsa, dərhal hotellər yaradılacaq. Ərəb turistlər gələn kimi restoranlarda ərəb dilində menyular, ərəbcə yazılar, mahnıları çıxdı. Bazar özü tənzimləyir. Əvvəllər ”İrşad" adında hotel vardı, spirtli içkilər satmırdı. Halal hotel kimi fəaliyyət göstərirdi. Turizm 4 sütundan ibarətdir: qida, yaşayış, ekskursiya və nəqliyyat. Təbii ki, halal turizmdən gələn turist halal hoteldə qalmalıdır. Qidalar da halal olmalıdır".

**R&R TRAVEL şirkətinin baş direktoru Rüstəm Əhmədov** halal turizm növünü seçən azərbaycanlıların sayının ötən illərə nisbətən getdikcə artdığını bildirir: “Halal hotelləri seçənlər arasında daha çox dinə bağlı və halal qaydalara üstünlük verən insanlar çoxluq təşkil edir. Aydındır ki, müxtəlif diskotekalar, içkilər və s əyləncə axtaranlar halal hotellərə heç göz ucu belə baxmırlar. Bu əslində inanclı insanların say artımı ilə bağlı deyil. Sadəcə şüurlarda bir dəyişiklik baş verir və Azərbaycan insanları da son zamanlar hər şeyin halalının daha çox faydalı olduğunu dərk edirlər. Halal turizm qida məhsulları və içkilər, ailə və cəmiyyət prinsipləri, təhlükəsizlik, rahatlılıq, arxayınçılıq, sağlamlıq və ümumiyyətlə haramdan uzaq durmaq baxımından fikrimcə daha faydalı turizm növüdür. Azərbaycanlı turistlər halal hotellər üçün əsasən Türkiyə və BƏƏ üstünlük verirlər. Türkiyə üzrə ümumilikdə 200-dən artıq, BƏƏ üzrə 35 -dən çox halal kurortlar təklif olunur. Ümumilikdə isə Azərbaycan da daxil olmaqla İndoneziya, Maldiv adaları, Tailand, Böyük Britaniya, İspaniya, İsveç və dünyanın bir çox ölkələrində HALAL hotellərin sayı durmadan artır. Bu gün ölkəmizdə tam olmasa da, halal hotelçilik prinsiplərinə qismən cavab verən 10-dan artıq hotel mövcuddur. Zamanla belə hotellərin sayı yəqin ki, artacaq. Çünki bu ilk növbədə alternativ turizm növüdür və hələ bu bazarda boşluq çoxdur, rəqabət azdır və bu istiqamət bizdə yenicə inkişaf edir”.

“Bu tip turistlərin sayı çoxdur. Azərbaycan müsəlman ölkəsi olduğu üçün islam ənənələrinə bağlı və sadiq insanların sayı da çoxdur. Eyni zamanda bu istirahət hüququ və seçim azadlığı baxımından onlar üçün yaradılmış yeni fürsətdir, bu onların tələbinə cavabdır. Çünki halal kurort və hotellərdə bütün tətil yalnız və yalnız halal prinsipləri üzərində qurulub. Bütün hotellərdə namaz otaqları, yemək və içkilərin halal olması ilə yanaşı, alkoqoldan ümumiyyətlə, istifadə olunmur, hovuzlar, SPA mərkəzlər və hətta bir çox çimərliklər belə qadınlar üçün tam qapalıdır, ümumi istifadədə olan çimərlik ərazisində isə qadınlar xüsusi islam qaydalarına uyğun (dress code) geyimlərdən istifadə edirlər. Bəzi turistlərimiz hətta, sanatoriyaların halal olanını tələb edirlər. Rusiyanın ənənəvi Qafqaz Mineral Suları (MİNVOD) sanatoriyalarında və ya Çexiyanın KARLOVI VARI kurortlarında belə halal müalicə müəssisələri, halal sanatoriyalar axtarırlar. Doğrudur, belə müalicə müəssisələri hələlik yoxdur, amma onlar bu tip obyektlərin olmasını arzu edirlər”, - deyə şirkət rəhbəri əlavə edir.

**Qiymətlərə gəlincə, R.Əhmədov halal hotellərin nisbətən daha bahalı olduğunu deyir**: “Çünki bu tip hotelləri işlədən sahibkarlar digər əyləncə və ya məhsulların satışından gəlir əldə edə bilmirlər. Hotellərin saxlanması, personalın əmək haqqı, işıq, su və ya başqa amortizasiya xərcləri digər hotellərdən fərqlənmədiyi üçün, xidmətlərini nisbətən baha satmağa məcburdurlar”.

**“Millennium Tourism & Congress” şirkətinin baş direktoru Ruslan Quliyev**in sözlərinə görə, halal hotelə üstünlük verən azərbaycanlılar ən çox Türkiyəni seçirlər: “Halal turizm dünyada artan templə inkişaf edir. Turist cəlb edən yeni sahədir. Türkiyə və bir sıra ölkələrdə artıq halal turizm konseptinə uyğun mehmanxanaların sayı artmaqdadır. Azərbaycan üçün də aktualdır. Halal hotelləri əsasən möminlər seçirlər. Azərbaycan vətəndaşları halal hotel seçərkən 4 və 5 ulduzlu hotellərə üstünlük verirlər. Ən çox Türkiyəni seçirlər. Bu turistlərin sayı çox deyil, ancaq artmaqdadır. Halal konseptə olan hotellərin qiymətləri digərlərindən bahalı olur”.

**Dini ekspert Kənan Rövşənoğlu** hesab edir ki, halal hotellərə Azərbaycanda da ehtiyac var: “İslamın qadağan etdiyi şeylər halaldır. Halal məsələsi buradan gəlir. Xüsusən də ötən əsrin 20-50-ci illərindən sonra İslam dünyası Qərb dünyası ilə iç-içə girməyə başladı. Həm qərbdəki, həm də şərqdəki dünyəvi müsəlmanlar ölkələrdə halal standartlar məsələsi meydana gəldi. Müsəlmanlar Avropaya gedəndə də bu ölçülərə ehtiyac yarandı. Bu istiqamətdə Türkiyə son 10 ildə çox sürətlə inkişaf etdi. Halal hotellər yarandı. Türkiyədə Yaşıl Kapitalizmin inkişafı ilə halal standartlar meydana gəldi. Azərbaycanda da turizm ölkəsinə çevrilir. Bizim də əsas turistlərimiz yaxın Şərq ərəb ölkələrindən gəlir. Onların bir hissəsi halal məsələlərinə çox fikir verməsə də, içərilərində dindarları da var. Bir azdan buna ehtiyac, tələbat yaranacaq. Azərbaycan da getdikcə Türkiyə təcrübəsinə keçəcək”.

**Qadınların kişilərlə eyni hovuzda çimməyi İslami qadağadan əlavə gigiyena baxımdan da doğru deyil. Cərrah-ginekoloq Cəmalə Hacıyeva qadınlarla kişilərin bir hovuzda çimməyini məsləhət görmür:** “Hovuz suyunda mikroblarin çoxalması üçün münbit şərait var. Uşaqlarla olar, amma kişilərlə eyni hovuzda çimmək məsləhət deyil. Qadınların infeksiyalara daha tez yoluxduğunu nəzərə alsaq, eyni hovuzda çimmək kişilər üçün təhlükəli sayılır. Amma normal gigiyena standartlarına cavab verən qapalı su hövzələri təbii ki, qarşılıqlı təhlükəsizdir”.

❑ **Ləman MUSTAFAQIZI, “Yeni Müsavat”**

## “Nar” korporativ tarif planlarını yeniləyərək daha sərfəli etdi

nar
Gəlin birlikdə böyüyək

**Biznes tərəfdaşlarının sayını ildən-ilə sürətlə artıran “Nar” artıq daha sərfəli şərtlərlə əməkdaşlıq təklif edir. Belə ki, mobil operator biznes üçün nəzərdə tutulmuş tarif planlarının tərkibində olan bonusları artırıb.**

**Şəbəkədaxili və şəbəkəxarici danışıq dəqiqələrinin, həmçinin beynəlxalq zənglərin həcmi tarifdən asılı olaraq 25%-dən 85%-dək artırılıb. Daha bir yenilik korporativ tarif planlarına şirkətdaxili limitsiz danışıq dəqiqələrinin əlavə edilməsidir. Sözügedən tariflər aylıq 8 AZN-dən başlayan abunə haqqı ilə təklif olunur.**

**Korporativ tarif planlarına qoşulan abunəçilər istər səsli xidmətlər, istərsə də mobil internet üçün sərfəli tariflərdən yararlanmaqla yanaşı, 24/7 rejimində çalışan xüsusi müştəri xidmətlərindən və yüksəkkeyfiyyətli mobil şəbəkədən də istifadə edə biləcəklər.**

**Korporativ tərəfdaşlıq üçün 789 telefon nömrəsi və ya business-nar@azerfon.az elektron poçt ünvanı vasitəsilə əlaqə saxlamaq olar. Təkliflərdən yalnız sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və ya fiziki şəxslər yararlana bilərlər.**

## Xaçmazda itkin düşən qadının meyiti tapıldı - öldürüb basdırıblar…

**Xaçmaz rayonunda qətl hadisəsinin üstü açılıb. APA-nın şimal bürosunun verdiyi məlumata görə, bir neçə gün öncə Xaçmaz şəhər sakinini öldürərək Əbilyatağı kəndi ərazisində basdıran şəxslər saxlanılıb. Hüquq-mühafizə orqanları əməkdaşlarının iştirakı ilə meyit basdırıldığı yerdən çıxarılıb və Xaçmaz Mərkəzi Rayon Xəstəxanasının morquna aparılıb.**

Həmin şəxsin 1967-ci il təvəllüdlü Əzizov Mirzağa Bədəl oğlu olduğu müəyyənləşib.

Xaçmaz rayon Mərkəzi Xəstəxanasından verilən məlumatda bildirilir ki, ilkin müayinələrlə meyiti tapılan şəxsin 15 gün əvvəl öldürüldüyü məlum olub. Onun başına balta ilə vurularaq, öldürüldüyü bildirilir.

Faktla bağlı Xaçmaz rayon Prokurorluğunda araşdırmalar davam etdirilir.

## Yağış yağacaq, temperatur 3-5 dərəcə enəcək - xəbərdarlıq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosu hava şəraitinin qeyri-sabit keçəcəyi ilə bağlı xəbərdarlıq edib.**

Bürodan verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında iyunun 12-si səhərdən 13-ü səhərədək şimal-qərb küləyinin arabir güclənəcəyi, bəzi yerlərdə fasilələrlə yağış yağacağı gözlənilir. Havanın temperaturu ötən günlərlə müqayisədə 3-5 dərəcə aşağı enəcək.

Azərbaycanın rayonlarında da iyunun 12-də və iyunun 13-ü gündüzədək qeyri-sabit hava şəraiti müşahidə olunacaq. Bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağışın leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu ötən günlərlə müqayisədə 3-5 dərəcə aşağı enəcək. Çaylarda sululuğun artacağı, Böyük Qafqazın bəzi dağ çaylarından qısamüddətli daşqın keçəcəyi ehtimal olunur.




## “Nar”ın dəstəyilə keçirilən “NETTY-2018” mükafatının qalibləri bəlli oldu

**“Nar” Azərbaycanın milli internet mükafatı “NETTY-2018"-ə dəstək oldu. İnformasiya və kommunikasiya texnologiyalarının inkişafına hər zaman töhfə verən mobil operator bir qayda olaraq, bu sahə üzrə irəli sürülən layihələrə dəstək olmaqdadır.**

**Azərbaycan milli internet mükafatı olan NETTY 2004-cü ildə təsis edilib. Ümumdünya şəbəkəsinin milli seqmenti və İKT bazarının inkişafı məqsədilə yaradılmış NETTY informasiya texnologiyaları sahəsində Azərbaycanın ilk peşəkar mükafatıdır. NETTY Azərbaycanın ən yaxşı internet layihələri və informasiya texnologiyaları sahəsində çalışan peşəkarları aşkar edərək onları mükafatlandırır.**

**NETTY Mükafatının qalibləri xüsusi yaradılan Ekspertlər Şurası tərəfindən seçilir. Bu il təsis olunmuş Ekspertlər Şurasının 1000-dən yuxarı üzvü olub. 15-22 may 2018-ci il tarixləri arasında mükafatın nominantlar siyahısını formalaşdıran Ekspert Şurası və Virtual münsiflər heyətinin səsverməsi həyata keçirildi. Ekspert Şurası hər nominasiya üzrə üç nominant seçdi. NETTY-2018 mükafatının qalibləri rəsmi olaraq iyunun 8-də təntənəli mükafatlandırma mərasimində elan edilib.**

**Müsabiqə çərçivəsində aşağıdakı nominasiyalar üzrə Azərbaycanda ən yaxşı resurslar elan olunacaq: “Azərbaycan”, “Dövlət saytı”, “Elm və təhsil”, “Mədəniyyət və incəsənət”, “Cəmiyyət”, “İnformasiya və xəbərlər”, “Servis-sayt”, “Korporativ sayt”, “Elektron ticarət sahəsində ən yaxşı layihə”, “İdman”, “Şəxsi sayt”, “Virtual münsiflər heyətinin seçimi”, “Facebook”-da ən yaxşı səhifə", “Proqramlar”, “Video”.**

**Qeyd edək ki, NETTY mükafatının baş sponsoru “Nar” mobil operatorudur. “Nar” korporativ sosial məsuliyyət strategiyasının tərkib hissəsi kimi Azərbaycanda İKT sahəsinin inkişafına və müxtəlif innovativ texnologiyaların, o cümlədən startapların inkişafına yönəlik müxtəlif layihələrə dəstək olur. “Nar”-ın KSM strategiyası haqqında ətraflı nar.az saytından məlumat əldə edə bilərsiniz.**

# F qrupu: "Alman maşını"nın qarşısında kìmlər var?

## Son dünya çempionunun rəqibləri təcrübəli komandalardır, amma...

**İyunun 14-də Rusiyada başlayacaq futbol üzrə XXI dünya çempionatda F qrupu da maraq doğurur. Səbəb sadədir: sonuncu dünya çempionu Almaniya məhz bu qrupda üç maraqlı komanda ilə mübarizə aparacaq.**

*1. Almaniya*
*2. Meksika*
*3. İsveç*
*4. Cənubi Koreya*



### Alman maşını

Almaniya bu mundialda da şübhəsiz ki, favoritlər sırasında göstərilir. Almaniya seçmə mərhələdə Azərbaycanla bir qrupda oynayırdı. 10 təsnifat oyununda almanlar kimsə şans verməd və bütün xalları(30 xal) aktivinə yazdırdı. Azərbaycan hər iki oyunda almanlara uduzsa da, Dmitri Nazarov Bakıda keçirilən oyunda tarixə düşdü. Belə ki, həmin oyunadək Almaniya 9 ay idi qapısından top buraxmırdı. Bunu elə-belə mundialı kənardan izləyən Azərbaycan millisinə motivasiya olsun deyə xatırlatdıq.

Almaniya 19-cu dəfədir ki, mundialda iştirak edir. 1954, 1974, 1990, 2014-cü ildə dünya kubokunu başı üzərinə qaldıran Almaniya millisi son illər əvvəlki kimi qarşısına keçəni əzən "təhlükəli maşın" deyil. Bunun əsas səbəbi isə komandanın daima yenilənməsidir. Almaniyanın heyətində "qoca"lar var, onları bu mundialda da görəcəyik. Amma komanda daima gənc istedadlar axtarışında olduğu üçün tam oturuşa da bilmir. Avstriya ilə son yoldaşlıq görüşündəki 1:2 hesablı məğlubiyyət də buna sübut ola bilər. Noyerin zədədən sonra yenidən milli komandaya qayıtması almanlar üçün əlavə stimuldur, amma...





Rusiya mediası acıqla yazır ki, Yoahim Lövün komandası Rusiyadan da pis oynadı. Bu isə mundial öncəsi SOS siqnalı ola bilər. Lövün rəhbərliyi altında almanlar ciddi uğurlara imza atıb. Almanlar 2014-cü ildə dünya çempionatının, 2017-ci ildə isə Konfederasiyalar kubokunun qalibi oldu.

Almaniya millisi Rusiyada fərqli başlayacaq, getdikcə güclənəcək və... Bütün çempionatlarda Almaniya adətən belə oynayır. Amma bu dəfə almanlar tez büdrəyə bilərlər. "Bundestim"in bu mundialda ardıcıl ikinci çempionluğunu qazana biləcəyi mənə problemli görünür. Bu da olsun çempionatla bağlı ilk proqnoz...

**Almaniya mundiala bu heyətlə gəlir:**

**Qapıçılar:** *Kevin Trapp ("PSJ"), Manuel Noyer ("Bavariya"), Mark-Andre ter Stegen ("Barselona")*

**Müdafiəçilər:** *Jerom Boatenq, Mats Hummels, Niklas Zyule, Yozua Kimmix (hamısı "Bavariya"), Mattias Qinter ("Borussiya" Münhenqladbax), Yonas Hektor ("Köln"), Marvin Plattenxardt ("Herta"), Antonio Rüdiger ("Çelsi")*

**Yarımmüdafiəçilər:** *Yulian Brandt ("Bayer"), Yulian Draksler (PSJ), İlkay Gündoğan ("Mançester Siti"), Sami Xedira ("Yuventus"), Toni Kroos ("Real"), Sebastyan Rudi, Leon Qoretska, ("Bavariya"), Məsut Özil ("Arsenal")*

**Hücumçular:** *Mario Qomes ("Ştutqart"), Marko Roys ("Borussiya" Dortmund), Tomas Müller ("Bavariya"), Timo Verner ("Leyptsiq")*

### Meksika-ardıcıl yeddinci mundial

Meksika da dünya çempionatlarında təcrübəli komandalardan biridir. Onlar da artıq 16-cı dəfədir ki, dünya birinciliyində güclərini sınayacaqlar. Meksika yalnız iki dəfə -1970 və 1986-cı ildə 1/4 finala qədər irəliləyib. Amma son 6 mundialda da heç vaxt qrupda qalmayıb. Meksikanın artıq yeddinci dəfədir mundiala fasiləsiz vəsiqə qazanması(1994, 1998, 2002, 2006, 2010, 2014) hər şeyi deyir. Meksika yalnız Braziliya mundialı istisna olmaqla heç vaxt vəsiqəni təmin etməkdə özünü çətinə salmayıb. Elə bu seçmə mərhələdə də 10 oyunun 6-da qalib gələn, yalnız bir oyunda uduzan Meksika millisi 21 xal toplayaraq qrup lideri olub. Meksika belə bir komandadlır və bu qrupda ikincilik uğrunda mübarizədə onlar da var.

Komandanı dünya birinciliyinə 56 yaşlı Xuan Karlos Osorio hazırlayıb. Avropa klublarında da təcrübə toplamış baş məşqçi mundialda böyük uğurlara imza atmağa iddialıdır.



### İtaliyanın arzusunu gözündə qoyanlar - İsveç millisi

İsveç milli komandası 12-ci dəfə DÇ gücünü sınayacaq. Dünya çempionatlarında təcrübəli komanda hesab olunsa da, ən ciddi uğuru ötən əsrdə - 1958-ci il mundialında ikincilik olub. İsveçə qarşı içimdə bir qırğınlıq olduğunu gizlədə bilmirəm, İtaliyanı pley-offda onlar mundialdan kənarda qoydular axı... Bu mundiala vəsiqə onların halalıdır, Yan Anderssonun rəhbərliyi altında İsveç yığması Rusiyada daha yaxşı nəticələr göstərə bilər. Amma İtaliyasız dünya çempionatının bir az dadı qaçmış kimi olur. Nə etmək olar, "özü yıxılan ağlamaz", deyiblər. İtaliya bu mundiala gəlsəydi belə, yenə məyus dönəcəkdilər. O komanda da nəsil dəyişikliyinə çox ehtiyac var.

Yeri gəlmişkən, təəssüf ki, İsveç futbolunun əfsanəvi siması olan Zlatan İbrahimoviç millidə karyerasına son qoyması səbəbindən mundialda oynamayacaq.

**Yan Anderssonun mundialda güvənəcəyi heyət belədir:**

**Qapıçılar:** *Robin Olsen ("Kopenhagen", Danimarka), Karl Yohan Yonssen ("Genqam", Fransa), Kristoffer Nordfeldt ("Suonsi Siti", Uels);*

**Müdafiəçilər:** *Mikael Lustiq ("Seltik", Şotlandiya), Viktor Lindelef ("Mançester Yunayted", İngiltərə), Andreas Qrankvist ("Krasnodar", Rusiya), Lyudviq Auqustinsson ("Verder", Almaniya), Emil Kraft, Filip Helander (hər ikisi "Bolonya", İtaliya), Pontus Yansson ("Lids", İngiltərə), Martin Olsson ("Suonsi Siti", Uels);*

**Yarımmüdafiəçilər:** *Emil Forsberq ("Leytpsiq", Almaniya), Viktor Klasson ("Krasnodar", Rusiya), Albin Ekdal ("Hamburq", Almaniya), Sebastyan Larsson ("Hall Siti", İngiltərə), Cimmi Durmaz ("Tuluza", Fransa), Markus Roden ("Krotone", İtaliya), Oskar Hilyemark ("Cenoa", İtaliya), Qustav Svensson ("Sietl", ABŞ);*

**Hücumçular:** *Ola Toyvonen ("Tuluza", Fransa), Markus Berq ("Əl-Əyn", BƏƏ), Yon Qvidetti ("Alaves", İspaniya), İsaak Kise Telin ("Vasland-Beveren", Belçika).*



### Cənubi Koreyaya autsayderdir deyirlər...

Seçmə mərhələ Cənubi Koreya üçün o qədər də asan olmayıb. A qrupunda İranla birinci yer uğrunda mübarizə aparan Cənubi Koreya millisi yalnız 15 xal toplayaraq bu qrupda ikinci vəsiqəni əldə etdilər. Koreya 10-cu dəfədir ki, dünya çempionatı iştirakçıları sırasına düşüb. Ardıcıl 7-ci dəfədir ki, mundialda iştiak edəcəklər. 2002-ci ildə öz ölkələrində keçirilən mundialda yarımfinaladək irəliləsələr də, bundan o yana keçə bilməyiblər.

Bu dəfə də proqnozlar nikbin deyil, cənubluların qrup mərhələsində evə dönəcəkləri deyilir.

Komandanı 2017-ci ildən Sin Txe Yön çalışdırır. Sin Txe 20 yaşadək futbolçulardan ibarət yığma komandadan əsas komandaya "transfer" olunub.

**Qapıçılar:** *Kim Sin Qyu ("Vissel Kobe"), Kim Çjin Xen ("Sereso Osaka"), Ço Xyun Yu ("Tequ")*

**Müdafiəçilər:** *Kim Yen Qvon ("Xuançjou Everqrand"), Çan Xen Su ("Tokio"), Çon Sin Xen ("Saqan Tosu"), Yun Yen Son ("Sonnam"), Kvon Ken Von ("Tyançzin Çyuançzyan"), O Ban Suk ("Çedju Yunayted"), Kim Cin Su ("Çonbuk"), Kim Min Yu ("Sandji Sanmu"), Pak Çu Xo ("Ulsan Xende"), Xon Çul ("Sandju Sanmu"), Ko Ye Xan ("Seul"), Li Yen ("Çedju Yunayted")*

**Yarımmüdafiəçilər:** *Ki Son Yen ("Suonsi"), Çon U Yen ("Vissel Kobe"), Kvon Çxan Xun ("Dijon"), Çu Se Djon ("Asan Muqunxua"), Ku Ca Çxol ("Auqsburq"), Li Co Son ("Çonbuk"), Li Sin U ("Verona"), Mun Son Min ("İnçxon Yunayted"), Li Çun Yun ("Kristal Pelas")*

**Hücumçular:** *Kim Sin Uk ("Çonbuk"), Son Xin Min ("Tottenhem"), Xvan Xi Çxan ("Zalsburq"), Li Qin Xo ("Kanvon")*

"Rusiya-2018"ə Azərbaycan milli komandası vəsiqə qazana bilmədi, Türkiyə də mundialdan kənarda qaldı, azərbaycanlıların son ümid yeri Ukrayna da çempionata düşmək istəmədi...

❑ **Nazim SABİROĞLU,**
**"Yeni Müsavat"**

# YENİ MÜSAVAT

## Son səhifə

N 127 (7016) 12 iyun 2018



### Əgər kompüter oyunları oynayırsızsa...

Kompüter oyunlarının insan beyninə müsbət təsir etməsi ilə bağlı iddia öz təsdiqiyini tapmayıb. Berlin və Stanfordlu alimlər kompüter oyunları hazırlayan firmaların reklamlarında tez-tez istifadə etdikləri və müştərilərə təsir edən “mütəxəssislər tərəfindən hazırlanıb” cümləsinin həqiqəti əks etdirmədiyi nəticəsini əldə edib. Müxtəlif ölkələrdən 70-dən artıq nevropotoloq və psixoloq aydınlaşdırıb ki, beyin gimnastikasını təmin edən komputer oyunları yaşlılıqla bağlı zehni qabiliyyət faizini aşağı salmır, amma heç yuxarı da qaldırmır. Oyunlar insan yaddaşını əsla gücləndirmir. Max Planck İnstitutundan Ulman Lindenberger fiziki olaraq aktiv olan, sosial həyata qatılan və zehni olaraq da oyaq qalan insanların zehni baxımdan daha sağlam yaşlanma şansının olduğunu dedi. Beyin və davranışların irəliləyən yaşlarda da idmana, gimnastikaya öyrəşdirməyin mümkünlüyü də elmi araşdırmaların nəticələri sırasındadır.

## Bağırsaqları mismar “qəbiristanlığı” idi

Hindistanda psixoloji problemləri olan və mədə ağrısı ilə xəstəxanaya gedən xəstənin tomoqrafiyası görənləri dəhşətə saldı. Xəstənin bağırsaqlarından 639 ədəd mismar çıxarıldı. Hindistan mediasının yazdığına görə, Gobarqdanqa bölgəsində yaşayan və adı açıqlanmayan 48 yaşındakı şəxs mədə ağrısı və qusma şikayəti ilə iki həftə öncə Kalkutta Xəstəxanasına gedib. Əməliyyatı həyata keçirən həkim Siddhartha Bisvas mismarların əksərinin 5 santimetrdən çox olduğunu deyərək, aşağıdakıları bildirib: “Xəstənin vəziyyəti yaxşıdır və nəzarət altında tutulur. Şans əsəri xəstənin bağırsaqlarında böyük miqyaslı yırtıq yaranmayıb”.



Həkimlər psixoloji problemləri olan xəstənin davamlı olaraq mismar udduğunu dedilər.

## Qadın zəhərli süd hazırlayıb 13 nəfəri öldürdü

Pakistanda ərinin əlindən qəzəbli olan qadın onun üçün hazırladığı zəhərli südlə digər 13 nəfəri öldürüb. Təcrübəli polis məmuru Ovais Əhməd mövzu ilə bağı yerli mediaya verdiyi açıqlamasında bildirib ki, sentyabr ayında görücü üsulu ilə evləndirilən Asiya Bibi cinayət ittihamı ilə həbs olunub. Cinayətdə iştirak etdiyi iddiası ilə Bibinin sevgilisi və sevgilisinin xalası da həbs olunub.

Polis sənədlərinə görə, Bibi keçən həftə ərinin südünə zəhər qarışdırıb, amma əri südü içməyib. Bundan sonra həmin süddən qatığa bənzər, süd lassı adı verilən içki hazırlanıb. Bibinin əri daxil olmaqla bütün ailənin içdiyi lassi ucbatından 13 nəfər ölüb və 14 nəfər də xəstəxanaya aparılıb.

Pakistanda hələ də qadınlar yüz illər boyudur ki, öz haqları üçün mübarizə aparırlar. Onların çoxu uşaq yaşlarından görücü üsulu ilə evləndirilir.





### Bu məktəbdə əl çalmaq qadağandır

Avstraliyanın Sidney şəhərində ibtidai məktəb şagirdlərinə əl çalmaq qadağan edilib. Bu barədə News.com.au saytı xəbər yayıb. Oğlanlara və qızlara bildirilib ki, onlar sevinclərini səssiz şəkildə bildirsinlər. Amma bununla paralel üzlərində sevinc ifadəsi göstərsinlər. Bu təklifin müəllifləri dərs zamanı səs-küy yaratmamaq üçün belə bir şey ediblər. Müəllimlər də hiss ediblər ki, bu cür səssiz sevinc nümayişi daha effektlidir. Nəşr yazıb ki, avstraliya məktəbləri siyasi korrektura yolunu seçiblər və artıq bütün fəaliyyətlərində bu nüansa əhəmiyyət verirlər. Belə ki, orta məktəblərdə qucaqlaşmaq, bayram mahnıları oxumaq, Avstraliya gününü qeyd etmək, “qara” sözünü tələffüz etmək qadağan edilib. Bəzi məktəblərdə “ledi” və “qadın” sözlərindən istifadə də qadağandır.




**QOÇ** - Ulduzlar pulla bağlı məsələlərdə, eləcə də fəaliyyət sahəsində sizi müvəffəqiyyətlər gözlədiyini bəyan edir. Odur ki, bu istiqamətdə istənilən təklifi qəbul etməyə dəyər.

**BUĞA** - Hansısa sövdələşmə ilə bağlı bəzi anlaşılmazlıq yarana bilər. Lakin bunu zorakı üsullarla yoluna qoymaq səmərəsizdir. Nahardan sonra sevgi sahəsində sevinəcəyiniz gözlənilir.

**ƏKİZLƏR** - Ay bürcünüzdə olduğu üçün nəqliyyatla, eləcə də təhlükəli cihazlarla ehtiyatlı davranmalısınız. Mübahisələr də istisna deyil. Axşama yaxınsa sevindirici məqamlar mümkündür.

**XƏRÇƏNG** - Bir tərəfdən məqsədlərinizə gedən yolların bağlılığı, digər tərəfdənsə sizi başa düşməyənlərin artması ovqatınıza mənfi təsir göstərməkdədir. Amma xoş nəticə üçün azacıq dözməlisiniz.

**ŞİR** - Günün ümumi mənzərəsi qənaətbəxş olsa da, bəzi vacib məsələlərdə həlledici qərarı özünüz çıxarmalısınız. Xüsusən də nahardan sonra uzaqgörənliyinizə ehtiyacınız olacaq.

**QIZ** - Ən ümdə arzularınızı gizli saxlayın. Özünüz də bilirsiniz ki, qabaqcadan nəyisə demək sizə düşmür. Ürəyinizi incitsə də, xoşbəxtliyiniz naminə kiməsə sirr verməməlisiniz.

**TƏRƏZİ** - İşgüzar əlaqələrinizi sıxlaşdırmaq, qlobal məsələləri həll etmək üçün sərfəli vaxtdır. Amma təşəbbüskarlığı və fikir mübadiləsində liderliyi öz əlinizdə saxlamalısınız.

**ƏQRƏB** - İkinci dərəcəli bütün planlarınızı təxirə salın. Çünki bu təqvimdə əsas müvəffəqiyyətiniz yalnız işlə bağlı olacaq. Həmkarlarınızla söz güləşdirməyin. Təmkinli olun.

**OXATAN** - Nədənsə son vaxtlar ulduzların tövsiyələrinə əməl etmirsiniz. Belə passivliklə irəli getmək isə çox çətindir. Bu səbəbdən də nahardan sonra gözlənilən önəmli şanslardan bəhrələnməlisiniz.

**OĞLAQ** - Bütün diqqətinizi ailə məsələlərinə və tərəf-müqabilinizlə münasibətlərə yönəldin. Hər hansı mübahisə başağrınıza səbəb ola bilər. Allaha düşmən olan falçı və cadugərə üz tutmayın.

**SUTÖKƏN** - Göy qübbəsi bəxtinizə neytral bir təqvim təyin edib. Odur ki, hansısa qlobal problemi həll etmək və ya hansısa təhlükə ilə üzləşmək barədə düşünməməlisiniz. Yalnız pul mümkündür.

**BALIQLAR** - Bəxtinizə inana bilərsiniz. Belə ki, ömrünüzün çoxsaylı məqamlarında olduğu kimi bu gün də gözləmədiyiniz halda hansısa probleminiz həll olunacaq. Maddi durumunuz da yaxşılaşacaq.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

### Çox yaşamağın 10 yolu



Alimlər ayrı-ayrı araşdırmalar çərçivəsində insan həyatını uzatmaqla bağlı nəticələrə gəlib. Bunlar “ömrü uzatmağın 10 yolu” adı altında toplanıb. Sözügedən yollardan biri insanın tez-tez ac qalmasıdır. Dünyanın ən uzun yaşayan insanların yaşadığı Okinavada xalq tam doymadan yeməkdən əlini çəkir. İkinci yol dil öyrənməkdir. Dil öyrənmək daha çox insanla ünsiyyət və müsbət enerji qazanmaq anlamına gəlir. Dağlarda yaşamaq, genetik müalicə, varlanmaq, bir inanca sahib olmaq, çox işləyib stressə girmək, dərmandan düzgün istifadə, orqan transplantasiyası, dünyada yaxşı işlər görmək də yaxşı yaşamağın qaydaları sırasındadır.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Elşad MƏMMƏDLİ
“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 5.100